www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyul 2016-cı il Cümə axşamı № 157 (6478) Qiyməti 60 qəpik

**Xəbər**

## İsmayıllıda dəhşətli olay: oğlan sevdiyi qıza görə özünü yandırdı

yazısı səh.14-də

**Gündəm**

### Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verildi




Universiteti müvəqqəti olaraq Elmar Qasımov idarə edəcək; "Təhsil sistemi əvvəlki qaydada saxlanılacaq"

yazısı səh.5-də

### 15 iyul olayı Qarabağ sülh prosesini yavaşıdıb - səbəb

yazısı səh.11-də

### "Zaman-Azərbaycan" qəzeti bağlandı, təsisçilər bəyanat yaydı

yazısı səh.5-də

### Akif Çovdarovu məhkəmə zalından azad edəcəklər?

yazısı səh.12-də

### 2016-cı ilin birinci yarısında paytaxtda 6.644 cinayət qeydə alınıb

yazısı səh.10-da

### Azərbaycanın Pensilvaniyası haradır?

yazısı səh.7-də

### ABŞ Türkiyədə niyə hərbi çevrilişə cəhd etsin - əsas motiv

yazısı səh.9-da

### Kənd təsərrüfatının inkişafı mümkün olacaqmı...

yazısı səh.13-də

### Bakıda 40, rayonlarda 42 dərəcəyədək isti olacaq

yazısı səh.14-də

### Bakını "yükdən" necə xilas etməli...

yazısı səh.13-də

### İqtidar müxalifəti birləşdirə biləcəkmi?

yazısı səh.7-də

### Bakıda qardaş bacısını bıçaqladı

yazısı səh.14-də

### Xəzərdə 3 nəfər boğuldu

yazısı səh.2-də

## Dost-müttəfiqlərin səfi mühüm düzəlişlər ərəfəsində

# MOSKVA-ANKARA-BAKI TƏHLÜKƏSİZLİK ÜÇBUCAĞI YARANIR - SENSASİON İDDİA, ERMƏNİYƏ BƏD MÜJDƏ...

Rusiyalı tanınmış analitikə görə, 15 iyul uğursuz çevriliş cəhdindən sonra Türkiyənin əsas oriyentiri ABŞ yox, Rusiya olacaq; Qarabağ məsələsi ətrafında da unikal situasiya yaranmaqdadır




yazısı səh.8-də

## "Baş verənlərin arxasında Amerikanın dayandığı barədə fikrim qətidir"

Atilla Kaya: "Azərbaycan prezidentinin ortaya qoyduğu mövqe son dərəcədə önəmlidir"; "Türkiyə çox böyük bir uçurumun başından döndü"

yazısı səh.5-də



*Vəkil:*

### "Cahangir Hacıyev deyir ki, kamerada istidən bişirik"

yazısı səh.12-də



*Fəzail Ağamalı:*

### "Konstitusiyaya dəyişikliklər Azərbaycana qarşı təzyiqlərə əl atmaq üçün əsas yaratmır"

yazısı səh.9-da



*Saakaşvili:*

### "Nəsə çox təhlükəli bir şey hazırlanır"

yazısı səh.2-də



# Prezident köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 2,5 milyon manat ayırdı

**Prezident İlham Əliyev məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə qərara alıram:

**1.** Bakı şəhəri ərazisində qəzalı vəziyyətdə olan binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrini hazır mənzil alınması yolu ilə yeni mənzillərlə təmin etmək üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# Saakaşvili: "Nəsə çox təhlükəli bir şey hazırlanır"

**"Onun qətli məndə belə bir təəssürat yaradır ki, bizə və bütün ölkəyə nəsə çox təhlükəli bir şey hazırlanır, siyasi sinif isə buna göz yuma-yuma bizi uçuruma aparır. Biz onları öz bağırtımızla dayandırmalıyıq. Amma təəssüf ki, Ukraynanın bir dürüst və güclü səsi azaldı". Ukraynanın Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili jurnalist Pavel Şeremetin qətlinə münasibət bildirərkən belə yazıb.**

Pavel Şeremet iyulun 20-də Ukraynanın paytaxtı Kiyevdə qətlə yetirilib. 44 yaşlı Pavel Şeremet işlədiyi "Radio Vesti"yə getmək istəyərkən onun idarə etdiyi avtomobildə əldəqayırma partlayıcı qurğu işə düşüb. Qurğunun kənardan işə salınması və ya saat mexanizminə quraşdırıldığı güman olunur.

Novator.az-ın məlumatına görə, Mixail Saakaşvili facebook səhifəsində bildirib ki, 2009-cu ildə Gürcüstanın prezidenti olanda Şeremet onun haqqında kitab yazıb. O vaxt kitabda yazılanlar prezident Mixail Saakaşviliyə ədalətsiz görünüb. Saakaşvilinin sözlərinə görə, 2014-cü ildə Ukraynada hakimiyyət dəyişikliyi ilə nəticələnən Maydan hadisələrindən sonra o, Şeremetlə dostlaşıb və Kiyevdə jurnalistə müsahibə də verib.

Facebook qeydində Saakaşvili Şeremetin çox istedadlı və olduqca saf adam olduğunu vurğulayıb və jurnalisti öldürənləri terrorçu adlandırıb.

Pavel Şeremet 1971-ci il noyabrın 28-də Belarusun paytaxtı Minskdə doğulub. O, Ukraynada 5-ci il idi yaşayırdı. Şeremet 2012-ci ildən "Ukrainskaya pravda" portalı ilə əməkdaşlıq edib, 2015-ci ilin sentyabrından isə "Radio Vesti"də müəllif proqramı aparıb. Ukraynaya köçməzdən əvvəl Pavel Şeremet Rusiyanın "1-ci kanal"ında (ORT) həftəlik "Vremya" proqramının aparıcısı olub, 2008-ci ildən "Oqonyok" jurnalının siyasət və cəmiyyət şöbəsinə rəhbərlik edib.

2004-2013-cü illərdə Gürcüstan prezident olmuş Mixail Saakaşvili 2015-ci ilin mayında Ukrayna vətəndaşlığı alıb və Odessa vilayətinin qubernatoru təyin edilib.

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Müsavat" - 0.60 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Yeni Müsavat"ın əməkdaşı "İlin ən yaxşı jurnalisti" seçildi

## Siyasət jurnalistikası üzrə "Yeni Müsavat"qəzetinin əməkdaşı Elşad Paşasoy qalib oldu

**İyunun 20-də Azərbaycan Jurnalistlər Şəbəkəsi və "ACT Azərbaycan" araşdırma şirkətinin birgə keçirdiyi "Mətbuata xidmət edənlər" layihəsinin sorğu nəticələri iyulun 20-də ictimaiyyətə açıqlanıb.**




Layihəyə əsasən müxtəlif qurumların mətbuat katibləri sorğuda iştirak edərək 5 kateqoriya üzrə (iqtisadiyyat, siyasət, sosial, mədəniyyət və idman jurnalistikası) fəaliyyətini bəyəndikləri jurnalistləri müəyyən ediblər. Ölkənin fərqli media qurumlarında çalışan jurnalistlər isə öz növbələrində 2 sahə üzrə (dövlət strukturu və biznes strukturu) yaxşı hesab etdiyi mətbuat katiblərini seçiblər.

**Sorğuda iştirak edən 70 mətbuat katibinin fikrincə, seçilən 5 jurnalist bunlar olub:**

*- İqtisadiyyat jurnalistikası üzrə Fins.az saytının rəhbəri Əli Əhmədov;*

*- Siyasət jurnalistikası üzrə "Yeni Müsavat"qəzetinin əməkdaşı Elşad Paşasoy;*

*- Sosial sahə jurnalistikası üzrə modern.az saytının əməkdaşı Gülşən Raufqızı;*

*- İdman jurnalistikası üzrə ATV kanalının aparıcısı Sənan Şəfizadə;*

*- Mədəniyyət jurnalistikası üzrə isə APA-nın əməkdaşı Ülkər Qasımova.*

Media ilə əlaqələrin qurulmasında ən məhsuldar çalışan mətbuat katibləri isə 100 jurnalist arasında keçirilmiş anket sorğusu əsasında müəyyənləşdirilib. Sorğuda iştirak edən jurnalistlər dövlət sektoru üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimovaya daha çox səs veriblər. Özəl sektorda isə "Bakcell" şirkətinin Korporativ Kommunikasiya bölməsinin rəhbəri Süheyla Cəfərova qalib olub.

Qeyd edək ki, "Mətbuata xidmət edənlər" layihəsi Azərbaycan Jurnalistlər Şəbəkəsi və "ACT Azərbaycan" araşdırma şirkəti tərəfindən həyata keçirilib.

# Qiyamçıların Öcalanla bağlı şok planı varmış

**İyulun 15-də Türkiyədə baş verən hərbi çevrilişə cəhd zamanı üsyançıların PKK lideri Abdulla Öcalanla bağlı xüsusi planı olub.**

Axar.az xəbər verir ki, üsyançılar kürd xalqını Türkiyəyə qarşı qaldırmaq, ölkədə xaos yaratmaq məqsədi ilə İmralı adasında saxlanılan Öcalanı həbsxanadan qaçırıb edam edəcəkmiş.

Lakin hərbi çevriliş cəhdi uğursuz olduğundan plan baş tutmayıb.

Xatırladaq ki, A.Öcalan 1999-cu ildə azadlıqdan ömürlük məhrum edilib.

# Xəzərdə batan 3 nəfərdən 2-nin meyiti tapıldı

**Xəzərədə 3 nəfər batıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi məlumata görə, hadisə Bakı şəhəri, Xəzər rayonunda, 50 metr dənizin içərisində (ən yaxınlıqdakı xilasetmə məntəqəsindən 3 km aralı, nəzarətsiz ərazidə) qeydə alınıb.**

Dənizdə batan 3 nəfərdən ikisinin cəsədi tapılıb.

Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olan məlumat əsasında dərhal nazirliyin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıc-xilasedicilərı hadisə yerinə cəlb olunub. 25-26 yaşında olan iki naməlum qadın cəsədi tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.



# Ramiz Əzizbəylinin 68 yaşı tamam oldu

**20 iyul xalq artisti, kinorejissor və aktyor Ramiz Əzizbəylinin doğum günüdür. Bu münasibətlə 68 yaşlı xalq artisti ilə əlaqə saxlayıb təbrikimizi bilirdirdik. Ramiz Əzizbəyli xoş əhval-ruhiyyə ilə çoxlu sayda dost-tanışının onu təbrik etdiyini dedi:**

"Doğum günümdür, belə deyirlər (gülür). Özümü çox yaxşı kimi hiss edirəm. Ətrafım doludur dost-tanışla".

Xatırladaq ki, xalq artisti Ramiz Əzizbəyli 20 iyul 1948-ci ildə Bakı şəhərində anadan olub. O, 1987-ci ildə "Debüt" studiyasında çəkdiyi "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi ilə rejissorluq fəaliyyətinə başlayıb. 1991-ci ildə isə "Bəxt üzüyü" tammetrajlı bədii filmini çəkib. Film kinoteatrlarda nümayiş olunan ən baxımlı kassa filmi və yeni tariximizdə çəkilən ilk ən gəlirli kino işi kimi yadda qalıb. Rejissoru olduğu "Yalan" bədii filmi isə Qarabağ probleminə, onun törətdiyi faciələrə həsr edilib. Ramiz Əzizbəyli "Hacı Zeynalabdin Tağıyev" və "Qızıl Buta" mükafatları laureatıdır.

❑ Xalidə GƏRAY

# Fransada kütləvi iğtişaşlar yenidən qızışdı

**Fransanın Val-d'Uaz departamentinin jandarma şöbəsində bir nəfər gəncin ölümündən sonra yüzlərlə fransız etiraz aksiyasına çıxıb.**

Polislə toqquşma zamanı altı polis xəsarət alıb.

Bu barədə "France İnfo" radiostansiyası məlumat yayıb.

"Yüzə yaxın adam... Bomon şəhərində jandarma şöbəsində gəncin ölümü barədə xəbər yayıldıqdan sonra polislə qarşılaşmaq istəyirdilər", - yerli hakimiyyətin nümayəndəsi Jan-Simon Meranda bildirib.

Bomon-sür-Uaz və Persan kommunallarının narazı vətəndaşları jandarma qarşısına toplaşıb və oradan qovulublar. Daha sonra onlar avtomobil və zibil konteynerlərini yandırıblar. Hüquq-mühafizə orqanlarının müdaxiləsinə qədər iğtişaşlar davam edib.

"Səhər sakitlik bərpa olunub. Hazırda 130 jandarm və polis əməkdaşı yeni xuliqanlıqların qarşısını almaq üün səfərbər edilib. Altı polis odlu silahdan yüngül yara alıb, bu, yolverilməzdir", - Meranda qeyd edib.



# "Sərkisyan istefaya gedir"

**"Ermənistan prezidenti Serj Sərkisyan özünün istefası ilə bağlı proseduru başladıb".**

Virtualaz.org-un xüsusi müxbiri xəbər verir ki, bunu Ermənistan müxalifətinin liderlərindən biri, prezidentliyə keçmiş namizəd Paruyr Ayrikyan deyib.

"Sərkisyan özünü ölkənin prezidenti hiss etsəydi, bu günlər ərzində hər hansı bir bəyanatla çıxış etməyə borclu idi. Hər şeydən göründüyü kimi, o, üsyançıların tələblərinə müvafiq olaraq istefaya gedir", - müxalif lider bildirib.

# Britaniya AŞ-də sədrlikdən imtina edəcək

**Böyük Britaniya Avropa Şurasında 2017-ci ilin iyulunda başlamalı olan sədrliyindən imtina edəcək.**

«Trend»in «RİA Novosti»yə istinadən verdiyi məlumata görə, bu, Britaniyanın baş naziri Tereza Mey və Avropa Şurasının sədri Donald Tusk arasında danışıqdan sonra məlum olub.

T.Mey bildirib ki, Britaniyanın prioriteti Avropa İttifaqından çıxmaq üzrə danışıqlar olacaq: "Aİ-dən çıxmaq üzrə danışıqlara dəqiq hazırlaşmaq lazımdır".

# Türkiyədə bütün hərbi prokuror və hakimlər işdən uzaqlaşdırıldı

**Türkiyədə hərbi prokurorluq və hərbi məhkəmə sistemində çalışan bütün şəxslər haqqında təhqiqat başlayıb.**

APA-nın Türkiyə xəbər agentliklərinə istinadən verdiyi xəbərə görə, Milli Müdafiə Nazirliyi 262 hərbi prokuror və hakimi vəzifələrindən uzaqlaşdırıb.

Bu şəxslərin "Fətullahçı Terror Təşkilatı"nın (FETÖ) üzvü olduqları bildirilir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# "WikiLeaks" Türkiyəni şoka saldı - yayılan sənədlərdə nələr ola bilər?

## Sülhəddin Əkbər: "Qiyamda böyük koalisiya görürəm; Türkiyə hökuməti bu prosesdə informasiya və sosial-psixoloji savaşın da olduğunu bilir"

**"WikiLeaks" Türkiyə ilə bağlı açıqlamağı vəd etdiyi gizli sənədləri və yazışmaları öz saytına yerləşdirib. Saytda Türkiyədəki 762 elektron poçt ünvanından 294 min 548 yazışma və minlərlə əlavə dosye açıqlanıb. "E-mail"lərin ən yenisi 6 iyul 2016-cı il tarixli, ən köhnəsi isə 2010-cu il tarixlidir. Dosyelar daha çox AKP iqtidarı ilə bağlıdır.**


Sülhəddin Əkbər

Məlumatın dərc olunmasının ardından Türkiyə hökuməti "WikiLeaks"ə girişi bağlayıb. "WikiLeaks"in xəbəri məhz qardaş ölkədə qiyamın fəsadlarının aradan qaldırıldığı vaxtda üzə çıxarması suallar doğurub. Ekspertlər hesab edirlər ki, sayt bu yolla qiyamda Qərbin əlinin olması ilə bağlı iddiaların gündəmdən çıxarılmasına çalışır. Çünki hərbi çevriliş cəhdində Amerikanın pərdəarxası iştirakı ilə bağlı iddialar günbəgün ciddiləşir. "WikiLeaks"in Türkiyə ilə bağlı yaydığı sənəd və yazışmalar bu yöndə fikirlərin daha da çoxalmasına səbəb olub. Xüsusilə Türkiyə hökumətinin ərazisində saytın girişini dayandırmasının Avropa ilə münasibətlərin pisləşməsinə səbəb ola biləcəyi də vurğulanır.

**Sabiq MTN-çi, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər gələcək müharibələrin xarakterinin artıq dəyişdiyini bildirdi:** "İndi bu müharibələrə "qarışıq müharibələr" deyilir. Amma düşünürəm ki, buna strateji müharibə desək, daha düzgün olar. Çünki geniş döyüşlərdir. Burada yalnız hərbi gücdən istifadə olunmur. Burada qeyri-hərbi, geniş arsenaldan istifadə edilir. Xüsusi vasitələrlə həyata keçirilən əməliyyatları nəzərdə tuturam. Türkiyədə son baş verənlər strateji əhəmiyyət daşıya bilər. Bunun birinci "ayağını" gördük ki, fiziki gücdən istifadə olundu. Çevrilişə uğursuz cəhd gördük. Bunun ardınca hansı alətlərdən istifadə olunacağını bilmirik. Çünki əlimizdə kəşfiyyat məlumatları yoxdur. Ola bilər ki, çoxmərhələli plan hazırlansın. Bunlara çoxmərhələli proses kimi baxılır. Bunun kompromatlarından biri də informasiya, sosial-psixoloji savaş olduğu nəzərdə tutulur. "WikiLeaks"ın məlumatlarının hansı xarakterdə olduğunu bilmədiklərinə görə, belə yönləmə alırlar ki, ümumiyyətlə, durdursunlar".

**Sabiq MTN-çi saytın girişinin Türkiyədə dayandırılmasına da toxundu:** "Proses başlayandan bir neçə saat sonra gəldiyim qənaət ondan ibarətdir ki, bu planda Türkiyəyə düşmən olan yad güclərin əlləri var. Çünki hər bir dövlətin kəşfiyyat orqanının, cinayətkarın belə davranış biçimi var. Qiyama qoşulanların davranışlarına diqqət edib belə fikrə gəlmişəm ki, bu hadisəni planlaşdıranlar xaricilərdir. Ən azından xaricilər bu planlaşdırmada iştirak ediblər. Xarakter baxımından amansız düşmənin davranış biçimini görürəm. Prezidentin öldürülməsi planının olması, Türkiyə parlamentinin vurulması, tankların əhali üzərinə sürülməsi, vertolyot və pulemyotlardan atəş açılması kimi hallar indiyə qədər Türkiyədə baş verən bu tipli hadisələrdə olmayıb. Bu baxımdan, xarici əlin olduğunu düşünürəm, amma bu bir versiyamdır. Bunun üçün əldə kifayət qədər dəlil-sübutlar olmalıdır. Çünki kifayət qədər ciddi iddialardır. Açığı, qiyamda böyük koalisiya görürəm. Burada təkcə Fətullah Gülən tərəfdarlarından istifadə olunmayıb. Ordu içərisində və digər qurumlarda olan qüvvələrdən də istifadə olunub. Gələcəkdə biz bunların şahidi olacağıq. Doğrudur, hakimiyyətdən narazı qruplar var və onlar qiyamda iştirakçı ola bilərlər. AKP iqtidarı dövründə hərbiçilərin səlahiyyətlərinin aşağı salınmasından narazı olanlar da burada var. Eyni zamanda Türkiyə daxilində xarici ölkələrin agentura şəbəkəsi var. Sadaladığım belə çoxsaylı amillər var. Burada xarici dövlət bir olmaya da bilər. Bu baxımdan, nəticə çıxarmağa tələsmək lazım deyil. Ciddi məsələ olduğuna görə yaxından izləməliyik və nəticələr çıxarmalıyıq. Türkiyə hökuməti burada informasiya və sosial-psixoloji savaşın olduğunu da bilir. Ona görə də saytın girişinin birbaşa dayandırılması qərarına gəlib. Məlumatlarda müxtəlif məqsədlər daşıyan xəbərlər ola bilər. AKP hökumətinin nüfuzdan salınması niyyəti də bu xəbərlərdə gözlənilir. Görünür, Türkiyə hökumətinin əlində konkret faktlar olmadığına görə gərginliyin artmaması üçün belə addım atılıb. Amma bağlanmasına baxmayaraq, müxtəlif metodlarla məlumat bir müddətdən sonra yeqin ki, yayılacaq. Bu proseslərin arxasında duranlar çox böyük güclərdir. Özü də ağlı olan güclərdir. Bəzilərindən fərqli olaraq, düşünürəm ki, bu, çox ciddi hazırlanmış, geniş tavanlı bir prosesdir. Yaxınlarda da bir proses olacağını düşünürəm. Bütün bunların bir müddət davam edəcəyi qənaətindəyəm. Hansı məlumatların yayılacağını gözləmək lazımdır. Biz də bu informasiyaları biləcəyik. İndi texnologiya o qədər inkişaf edib ki, bunun qarşısını almaq mümkün deyil. Yayılan məlumatların əsasında konkret fikir söyləmək mümkündür. Xəbərin məhz indi yayılmasında bir sorun yoxdur. Amma nə məqsədlə yayılması üçün məlumatlara baxmaq lazımdır".

❑ **Cavanşir ABBASLI**

# Türkiyədə daha 992 hərbçi saxlanıldı

## Onların arasında 12 general, 1 admiral da var

**Türkiyədə Fətullahçı Terror Təşkilatının (FETÖ) dövlət çevrilişi cəhdi ilə bağlı aparılan istintaq çərçivəsində daha bir general saxlanılıb.**



Türkiyəli komandan Eskişehirdə saxlanılıb.

"Report"un Türkiyə KİV-inə istinadən verdiyi məlumata görə, saxlanılan şəxs İstanbulda qızının toyunda Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Abidin Ünalla birlikdə qiyamçılar tərəfindən helikopterlə qaçırılan və daha sonra sərbəst qalan ordu generalı Mehmet Şanverdir.

Həmçinin İstanbulda Fətullahçı Terror Təşkilatının (FETÖ) uğursuz dövlət çevrilişi cəhdi ilə bağlı aparılan istintaq çərçivəsində daha 992 hərbçi barəsində həbs qərarı verilib.

"Report" xəbər verir ki, onların arasında 12 general, 1 admiral, polis, müəllim və əsgərlər də var.

Məlumata görə, 58 hərbçi sərbəst buraxılıb.

Bundan əlavə, hərbi çevriliş cəhdində təqsirləndirilən daha 1 184 hərbçinin məhkəmə prosesinin keçirilməsi gözlənilir.

# Rəqibin qoluna kauçuk qandal, ağzına skotç vurmaq...



**Xalid KAZIMLI**

**Bu mövzu zaman-zaman qabarır və sonunda müstəqil media qurumları ziyan çəkirlər. Söhbət hakimiyyətin, bəzən isə dövlətin düşmən elan etdiyi qüvvəyə, şəxsə medianın tribuna verib-verməməsi məsələsindən gedir.**

Düstur çox sadə, hətta bəsitdir: bir şəxs və ya qüvvə düşmən, xain elan ediləcək, ona qarşı total təbliğat aparılacaq, amma onlar özlərinin müdafiəsinə bir söz demək imkanından məhrum ediləcək.

Hakim güruhun arzusu bundan ibarətdir ki, heç bir media qurumu onun düşməninə, hətta siyasi rəqibinə tribuna verməsin.

Bizim ölkəmizdə bu fəndi ölkədə rəsmi qeydiyyatdan keçmiş siyasi partiyalara da tətbiq ediblər. Dəfələrlə olub ki, siyasi partiyalara mediada ağır cinayət ittihamları irəli sürüb, qara piar kampaniyası aparıblar, amma nə onların barəsində cinayət işi açıblar, nə də onlara tribuna veriblər ki, özlərini müdafiə etmək üçün bir söz desinlər. Məqsəd rəqibi gözdən salmaq, küncə sıxmaq olub.

Bu, əlbəttə, normal deyil. Çünki bir tərəf heç də həmişə yüzdəyüz haqlı olmur. Həqiqət mübahisədə, polemikada meydana çıxır. Amma tərəflərdən biri monoloq söyləməyi, qarşısındakının ağzını "skotçlayaraq" susdurmağı üstün tutursa, bu, demokratik prinsiplərlə daban-dabana ziddir.

Lap tutaq ki, bir zamanların 1 nömrəli terrorçusu Üsamə bin Laden sağdır və o, növbəti müdhiş terakt törədib, bütün dünya ondan danışır, onu yamanlayır, ittiham edir. Bir jurnalist isə bin Ladeni tapır, müvafiq ittihamlara münasibətini soruşur, o da ya terakta görə məsuliyyəti öz üzərinə götürür, ya da inkar edir. İndi bu, avtomatik olaraq terroru təbliğ etmək olur? Xeyr. Bu, xalqa informasiya çatdırmaqdır, həqiqətə yaxınlaşmaqdır.

İndiyə qədər yüz dəfələrlə olub ki, vəzifəli adamlara, məşhur simalara qarşı əsassız ittihamlar irəli sürüblər və onları hətta ağır cinayətlərə görə mühakimə ediblər. Çox olub ki, jurnalistlər hüquq-mühafizə orqanlarından fərqli olaraq məsələyə obyektivcəsinə yanaşıb, həqiqətin nədən ibarət olduğunu yazıblar, xalqa çatdırıblar və illər keçdikdən sonra təsdiqlənib ki, jurnalistlər yazan düz imiş, prokurorlar və hakimlər əslində işə qərəzli yanaşıblar, səhlənkarlıq ediblər, cinayət törədiblər. Həqiqətin üzə çıxmasının nəyi pisdir?

21-ci əsrin bu vaxtında adamları informasiya blokadasına almaq, susdurmaq, birincisi, mümkün deyil, ikincisi isə düzgün deyil. İnternet əsrində milyonlarla elektron xəbər qaynağının *(saytların, portalların, bloqların, adi sosial şəbəkə səhifələrinin)* olduğu bir vaxtda necə informasiya blokadası yaratmaq olar?

İnsanları alternativ söz demək, özlərini müdafiə etmək hüququndan məhrum etmək avtoritarizm və totalitarizmin qarışığından yaranan bir yanaşmadır.

Tərs kimi, bu duruma ən çox Şərq ölkələrində rast gəlinir və zaman-zaman bu tendensiya daha da güclənir.

Şərq ölkələrində hələ də mediaya təbliğat-təşviqat ruporu kimi baxır, onun əsas funksiyasının cəmiyyətə gerçək, neytral, səhih informasiya çatdırmaq olduğunu qəbul etmək istəmirlər. Şərq mediası daima hökmranları tərifləməli, onların rəqiblərini pisləməlidir, elə informasiyalar verməlidir ki, xalq hakimiyyətə qarşı yönəlməsin, onu nədəsə məsul tutmasın.

Bu tip ölkələrdə hələ də anlamaq istəmirlər ki, əgər ölkə daxilində işlər qaydasında deyilsə, problemlər, gərginlik ocaqları varsa, haqq-ədalət addımbaşı pozulursa, bütün media qurumları 7\24 rejimdə hakimiyyəti tərifləsə də, siyasi rəqibləri "cümlə xəyanətlərə bais" elan etsə də, umulan nəticəni verməyəcək. Cəmiyyət səsləndirilən mədhiyyələrin acı gerçəkliyə, göstərilən cənnət kadrlarının ətrafdakı eybəcər mənzərəyə uyğun olmadığını asanlıqla görəcək və bunu pəs səslə olsa da deyəcək.

Uzun sözün qısası, media azad olmalıdır, hamıya tribuna verməlidir. Özlərini haqlı hesab edənlər isə haqsız hesab etdiklərinin qarşısına skotçla yox, güclü arqumentlərlə çıxmalıdır, hər cür polemikalarda onları bağlamağa hazır olmalıdır. Yoxsa qolu yeni növ kauçuk qandallarla bağlanmış adamların bir də ağzına skotç yapışdırmaq, sonra da "gördünüzmü, mən haqlı çıxdım" demək və təntənə etmək mütləq təpki doğuracaq.




# Dünya iqtisadiyyatı ildə 2 trln. dollar itirə bilər

**2030-cu ilə dünya iqtisadiyyatı ildə 2 trln. ABŞ dolları itirə bilər. Buna səbəb qlobal istiləşmə nəticəsində baş verən iqlim dəyişikliyi ilə havanın temperaturunun yüksəlməsi səbəbindən əmək məhsuldarlığının aşağı düşməsi göstərilir.**

"Report" xəbər verir ki, bu barədə açıqlama BMT Universitetinin BMT inkişaf proqramının Kuala-Lumpur şəhərində təşkil etdiyi forumda təqdim edilən "Asia-Pacific Journal of Public Health" jurnalında dərc olunan "Beynəlxalq sağlamlıq və ekologiya" adlı məruzədə bildirilib. Məruzəni təqdim edən fondun rəhbəri, professor Tur Şellstrem ekstremal isti havanın mənfi təsirlərinin əsasən kənd təsərrüfatı sektorunda və istehsalatda olacağını qeyd edib. O bildirib ki, qızmar havalarda adi hallarda olan intensivliklə çalışmaq mümkün deyil: "Belə havalarda tədricən iş tempi yavaşlayır və istirahət müddəti artır. Nəticədə əməyinin daha çox istifadə olunduğu yoxsul ölkələr daha da kasıblayacaq, zəngin ölkələr isə elektrik sərfiyyatını artırmağa məcbur qalacaq".

Araşdırma göstərib ki, havaların isinməsi 43 ölkənin iqtisadiyyatına mənfi təsir göstərəcək. Tur Şellstrem bildirib ki, 2030-cu ilə Qana və Nigeriya 6%-dən çox, Malayziya, Tailand, Filippin və İndoneziya 6%, Vyetnam və Kambodca 6%-ə qədər ÜDM itkisi ilə üzləşəcəklər. Hindistan və Çinin illik itkiləri isə 450 mlrd. ABŞ dollarına çata bilər. Professor həmçinin qeyd edib ki, Rusiya, Norveç və İsveç kimi ölkələr isə sərt qış səbəbindən əmək məhsuldarlığında itkilərə məruz qala



bilər. Rusiyanın bu səbəbdən 2030-cu ilə ÜDM-nin 1%-ni itirməsi mümkündür.

**"İndependent" qəzetinə açıqlamasında Tur Şellstrem qlobal istiləşmə problemini 2050-ci ilə qədər həll etmək mümkün olmadığını deyib:** "Lakin indi alınacaq bir sıra tədbirlərlə 2050-ci ildən sonra havanın temperaturuna təsir etmək imkanları var. Bunun üçün ilk növbədə havaya zərərli tullantıların daxil olmasının qarşısı alınmalıdır". Professor xatırladıb ki, ən xoşagəlməz hadisə dünyanın əksər ölkələrinin bu problemi həll etməkdən çox bu problemlə yaşamağa hazırlaşmalarıdır.



# Azərbaycanın kredit almaq imkanları...

## BVF-yə 4 milyard dollarlıq kredit üçün müraciətin və ehtiyacın səbəbləri...

**Azərbaycan hökumətinin son aylar ərzində beynəlxalq təşkilatlardan kredit almaq istəkləri reallaşmır. Son olaraq, Beynəlxalq Valyuta Fondu (BVF) ilə bağlı gözləntilər olsa da, bu da müsbət nəticələnməyib. Maliyyə naziri Samir Şərifov "Financial Times" nəşrinə müsahibəsində deyib ki, Beynəlxalq Valyuta Fondu neftin ucuzlaşmasının qlobal iqtisadiyyata müsbət təsir göstərəcəyini bildirsə də, bu baş vermədi.**

Nazir bir müddət əvvəl Azərbaycanın Dünya Bankı və Beynəlxalq Valyuta Fonduna 4 milyard dollarlıq kredit üçün müraciət etməsi ilə bağlı yayılan məlumatlara da münasibət bildirib: "Olduqca kiçik həcmdə xarici borcu və 34 milyard dollarlıq ehtiyata malik suveren fondu olan ölkənin bu vəsaitə ehtiyacı yoxdur. Beynəlxalq Valyuta Fondu Azərbaycana bazarda mövcud olan faizlərdən aşağı dərəcə ilə kredit ayıra bilərdi. Söhbət iqtisadiyyata yardımdan deyil, daha ucuz maliyyə vəsaitinin cəlb edilməsinə yardım etməkdən gedir. Beynəlxalq Valyuta Fondu Azərbaycana bazarda mövcud olan faizlərdən aşağı dərəcə ilə kredit ayıra bilərdi. Buna baxmayaraq, iri maliyyə vəsaitlərinin üstündə oturan və onları bölüşdürə bilməyən institut var". O əlavə edib ki, hazırda fond bu məsələlərin həlli üçün 4 məhsul üzərində işləyir. Nazirin sözlərinə görə, bəzi ölkələrin yardıma möhtac olması onlara Beynəlxalq Valyuta Fonduna müraciət etməsində maneədir: "Nəticədə kiçik problem böyüyür".

**Ekspertlər musavat.com-a BVF və digər böyük xarici qurumların Azərbaycana kredit verməsində yaranan maneələrdən danışıblar. Natiq Cəfərli bildirib ki, Azərbaycan təkcə BVF-dən deyil, digər təşkilatlardan da kredit almağa cəhd edir:** "Azərbaycan hazırda bütün beynəlxalq strukturlardan, haradan mümkündürsə, kredit istəyir. İstəməkdə də davam edəcək. Kreditlərin ayrılmamasının bir neçə səbəbi var. Birinci səbəbi Azərbaycanın beynəlxalq maliyyə reytinq agentliklərində reytinqinin kifayət qədər aşağı səviyyəyə düşməsidir. Aşağı səviyyəyə düşən ölkələrə kreditlərin verilməsi çətinləşir. Beynəlxalq strukturlar həmin ölkələrdə problemlərin ola biləcəyi ehtimalını nəzərə alaraq, kreditlərin verilməsində daha sərt şərtlər irəli sürürlər. İkinci əsas səbəblərdən biri, bəlkə də birincisi odur ki, həm Beynəlxalq Valyuta Fondu, həm Dünya Bankı, ən böyük strukturlar kredit verərkən mütləq böyük islahat paketi tələb edirlər. Kreditlərdən istifadədə şəffaflığın artırılması, effektivliyinin artırılması üçün hökumətdən mütləq hər hansı bir şəkildə islahatlar paketinin olmasını struktur və idarəetmə islahatlarını, özəlləşdirmə ilə bağlı proqramın olmasını tələb edirlər. Azərbaycan hökuməti çox güman ki, köklü islahatlara hazır deyil. Hazır olmadığına görə də belə paketlərin təqdim olunmasında gecikmələr olur. Və yaxud da məsələni uzadırlar ki, kreditlər verilsin, sonra biz sizinlə işləyəcəyik, islahatlar aparılacaq və sair. Görünən odur ki, həm beynəlxalq reytinqin aşağı düşməsi, həm Azərbaycan hökumətinin kredit almaq üçün islahatlar paketlərini işləyib hazırlamaması, qanunvericilikdə dəyişikliklər etməməsi, Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsinin gecikdirilməsi kreditlərin verilməsini çətinləşdirir. Azərbaycan hökuməti anlamalıdır ki, dünyanın öz oyun qaydaları var. Azərbaycan doğrudan da kredit almaq istəyirsə, borclanmaya getmək istəyirsə, müəyyən islahatlar həyata keçirmək istəyirsə, beynəlxalq oyun qaydalarına, o tələblərə cavab verməlidir. O olmasa təbii ki, kredit də olmayacaq".

Ekspertlər bildirirlər ki, götürüləcək kreditin şərtləri, müddəti əhəmiyyətlidir. Bildirilir ki, Azərbaycan hökuməti şərtləri yüngül olan kreditlərin alınmasını həyata keçirməlidir. Kreditlər də təyinatı üzrə verilməlidir. Məsələn, Beynəlxalq Valyuta Fondu, digər qurumlar struktur dəyişikliklər, struktur islahatların dəstəklənməsi ilə bağlı kreditlər verir. Həmçinin qeyd edilir ki, dövlət tərəfindən alınmış kreditlərin istifadəsinə nəzarətin gücləndirilməsi də olduqca vacibdir. Yəni alınmış kreditlərin səmərəli istifadə olunması, təyinatı üzrə xərclənməsi düzgün olmalıdır. İndiki məqamda hökumət tərəfindən yalnız biznesin dəstəklənməsi ilə bağlı kreditlərin alınması məqsədəuyğundur.

**Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# “Baş verənlərin arxasında Amerikanın dayandığı barədə fikrim çox açıq və qətidir”

## Atilla Kaya: “Azərbaycan hökumətinin və prezidentinin bu mövzuda ortaya qoyduğu mövqe son dərəcə önəmlidir”

## “Türkiyə çox böyük bir uçurumun başından döndü”

**Türkiyə Böyük Millət Məclisinin üzvü, MHP-dən olan deputat Atilla Kaya Türkiyədə yaşanan son olaylarla əlaqədar “Yeni Müsavat”a müsahibə verib. Qardaş ölkədə baş verənlərlə əlaqədar gərgin iş qrafikində çalışmasına, zamanı az olduğuna rəğmən Atilla bəy yalnız bir qisim suallarımızı cavablandıra bildi.**

***- Atilla bəy, Türkiyədə yaşananlara görə bir daha “Yeni Müsavat” adından “keçmiş olsun” deyirik. Şükürlər olsun ki, daha böyük faciələr yaşanmadı. Bəs bundan sonrakı dönəmlə bağlı nə demək olar? Bu kimi hadisələrin təkrarlanması mümkündürmü? Bu proseslərin arxasında duran qüvvələrlə bağlı sizin qənaətiniz necədir?***

- Vallah, Türkiyə çox böyük bir uçurumun başından döndü. Qarşıdakı dönəmlərdə də Türkiyəni qarışdırmaq istəyənlər hansısa cəhdlər göstərə bilərlər, yəni başqa hansısa cəhdlər ola bilər. Amma Türkiyə çox böyük fəlakətlərdən qurtuldu. Amerikanın tətiklədiyi, arxasında olduğu Fətullahçı qrup Türkiyə daxilində savaşa nail olmaq, qarışıqlıq salmaq və ölkədə hakimiyyəti ələ keçirmək üçün hərəkətə keçmişdi. Amma dövlət çevrilişinə cəhd uğursuzluqla nəticələndi.

***- Deməli, MHP də proseslərin tətikçisi rolunda ABŞ-ın çıxış etdiyi qənaətindədir?***

- Bu, mənim şəxsi fikrimdir. Baş verənlərin arxasında Amerikanın dayandığı barədə fikrim çox açıq və qətidir. Çünki bütün müşahidələr də bunu göstərir. Bu, mənim şəxsi mövqeyimdir.

***- Belədirsə, Türkiyə hakimiyyəti niyə Vaşinqtonu qane etmir? Burada Rusiya-Türkiyə barışığının əsas olduğunu demək mümkündürmü, yoxsa ayrı səbəblər var?***

- Bu, çox uzun bir prosesdir. Türkiyə NATO ölkəsi olaraq, NATO-da təsiri var idi. Amma “soyuq savaş”dan sonra, xüsusilə də 90-cı illərdə PKK ilə mübarizə zamanı bu təşkilatın Amerikadakı bəlli qurumlar tərəfindən dəstəklənməsi, PKK-ya lojistik yardımların göstərilməsi faktları ortaya çıxdı. Hətta İraqın işğalı zamanı Amerika hər tərəfi bombaladı, təkcə PKK-nın düşərgələrinin olduğu yerə bomba atmadı. Bütün bunlar da ordu içərisində Amerikaya şübhəli baxışların ortaya çıxmasına səbəb olmuşdu. Ötən zamanlarda hətta Türkiyənin alternativlərə əl atması ilə əlaqədar fikirlər də ortaya çıxmağa başladı. “Ergenokon”, “Balyoz” və s. əməliyyatlar zamanı milli düşüncə sahibi olan və NATO-nun, Amerikanın bu cür yanlışlarına qarşı çıxan hərbçilərin böyük bir qisminin də bu sıraya daxil edildiyini gördük.

### “Çevrilişlə bağlı xəbərlər ortaya çıxanda ilk təpki MHP liderindən gəldi”

***- Atilla bəy, narahatlıq var ki, tökülən qanların ardınca hökumət daha sərt siyasətə üstünlük verə, hətta siyasi təşkilatlarla bağlı məhdudlaşdırıcı addımlara gedə bilər. Eyni zamanda əksəriyyət əmindir ki, bundan sonra da demokratiya, xalqın iradəsi öndə olacaq, çünki Türkiyəni çevriliş cəhdindən xalq xilas etdi. MHP lideri Dövlət Baxçalı baş nazir Binəli Yıldırımla görüşündən sonra yəqin ki, partiya rəhbərliyini də məlumatlandırıb. Hökumətin Türkiyənin gələcəyi, gediləcək yolla bağlı mövqeyi, baxışı necədir, hakimiyyət hansı seçimi edəcək?***

- Çevrilişlə bağlı xəbərlər ortaya çıxanda ilk təpkilər MHP-nin liderindən gəldi. “Sağlam durun, dik durun, biz sizin yanınızdayıq, bu çevriliş cəhdinin qarşısındayıq” deyə, baş naziri ilk arayan və çevriliş cəhdi ilə bağlı ictimai rəyə mövqeyini ilk açıqlayan başqanımız və MHP oldu. Bundan sonra təbii ki, bütün bu ünsürlərin, illər boyu dövlətə qarşı hazırlanan proseslərdə yer alanların ortaya çıxarılması zəruridir. Son günlər ərzində baş verənlər onu göstərdi ki, millətdə çox güclü demokratiya ruhu var və türk milləti bu kimi çevriliş cəhdlərinə heç zaman imkan verməyəcək. Eyni zamanda müstəqil medianın fəaliyyətinin nə qədər önəmli olduğu, həmçinin gərginləşdirici siyasətin ölkəyə nə dərəcədə zərər verdiyi ortaya çıxdı. Bütün bunlar nəzərə alınaraq, bundan sonra zəruri addımların atılması lazımdır.



### “Bundan sonra təbii ki, bütün bu ünsürlərin, illər boyu dövlətə qarşı hazırlanan proseslərdə yer alanların ortaya çıxarılması zəruridir”

***- MHP-nin bu proseslərdə hakimiyyətin yanında yer almasına fərqli prizmadan yanaşanlara nə sözünüz var?***

- MHP zatən ilk gündən çevriliş tərəfdarları olanların, millətin iradəsini, müstəqilliyini hədəfə alan hər cür qüvvənin qarşısındadır. Son hadisələr də ortaya çıxanda MHP dərhal özünün qəti və konkret mövqeyini ortaya qoydu.

***- Türkiyədə ölüm cəzasının bərpası ilə bağlı müzakirələr başlayıb və MHP-nin bu təşəbbüsə dəstək verməsi birmənalı qarşılanmır...***

- Bu cür məsələlər gündəmə gələn zaman Türkiyədə dərhal müzakirələrə səbəb olur. Ölüm cəzası bərpa olunsa belə, onun geriyə şamil olunması müzakirə mövzusu deyil. Başqanımızın da dediyi kimi, iqtidar partiyası bu mövzuda addım atarsa, biz ona hər cür dəstək verməyə hazırıq. Biz bu cəzanın bərpa olunmasının tərəfdarıyıq.

***- Son hadisələrə Azərbaycandan verilən reaksiyaları necə qarşıladınız?***

- Azərbaycanın da bu məsələdə verdiyi dəstək bizi razı salır. Bilirik ki, azərbaycanlı qardaşlarımızın da ürəyi burda bizimlə bərabər döyünürdü. Azərbaycan hökumətinin və prezidentinin bu mövzuda ortaya qoyduğu mövqe son dərəcə önəmlidir.

***- Hazırda Türkiyədə həyat əvvəlki axarına qayıdıbmı?***

- Bəli, artıq hər şey əvvəlkitək, öz normal axarına qayıdır. Dostlara salam və sayğılarımızı çatdırmağınızı rica edirəm.

❑ **Elşad PAŞASOY**

# Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verildi

## Universitetin təsisçisi Təhsil Nazirliyinə müraciət etdi; ali məktəbə müvəqqəti olaraq Elmar Qasımov rəhbərlik edəcək; “Təhsil sistemi əvvəlki qaydada saxlanılacaq”

**Qafqaz Universitetinin təsisçisi Azərbaycan Respublikasının Təhsil Nazirliyinə müraciət edərək iyulun 20-də universitetin bağlanması haqqında qərar qəbul olunduğu barədə məlumat verib.**

Təhsil Nazirliyindən APA-ya bildirilib ki, müvafiq rəsmi sənədlər nazirliyə daxil olduqdan sonra Qafqaz Universitetində təhsil alan tələbələrin təhsillərinin davam etdirilməsini təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən müvafiq işçi qrupu yaradılacaq və onların yerləşdirilməsi prosesi aparılacaq.

Günün ikinci yarısında isə məlumat verildi ki, Beynəlxalq Təhsil Mərkəzinin iyulun 20-də keçirilən iclasında Qafqaz Universitetinin Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verilməsi barədə qərar qəbul edilib.

Mərkəzdən “Report”a verilən məlumata görə, qəbul edilən qərar universitetin idarəçiliyinin effektivliyini artırmaq məqsədi daşıyır. Elmar Qasımov Bakı Ali Neft Məktəbi ilə yanaşı, müvəqqəti olaraq Qafqaz Universitetinin də idarəçiliyinə rəhbərlik edəcək.

“Qafqaz Universiteti kifayət qədər reytinqi olan bir ali təhsil müəssisəsidir və fəaliyyətini davam etdirəcək. Ali təhsil müəssisəsinin pedaqoji heyəti fəaliyyətini, tələbələr isə təhsillərini davam etdirəcəklər” - deyə, mərkəzdən bildiriblər.

“Sabah Qafqaz Universitetinin kampusunda təhvil-təslim işləri həyata keçiriləcək”. Bunu APA-ya açıqlamasında Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov deyib.




**Rektor bildirib ki, Qafqaz Universitetində təhsil sistemi əvvəlki qaydada saxlanılacaq:** “Bütün ixtisaslar, abituriyentlərin qəbulu olduğu kimi qalacaq. Qafqaz Universiteti əvvəl necə fəaliyyət göstəribsə, bu gündən sonra da elə fəaliyyət göstərəcək. Sadəcə olaraq, Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin rektorluğunun idarəçiliyi altında fəaliyyətini davam etdirəcək. Qafqaz Universiteti Bakı Ali Neft Məktəbinin rektorluğunun idarəçiliyi altında daha da inkişaf edəcək”.

E.Qasımov əlavə edib ki, tədris Qafqaz Universitetinin kampusunda davam etdiriləcək.

BANM rektoru onu da qeyd edib ki, iyulun 21-də Qafqaz Universitetinin rektoru Əhməd Saniç vəzifəsindən azad olunacaq.

# “Zaman-Azərbaycan” qəzeti bağlandı, təsisçilər bəyanat yaydı

## "Türkiyə-Azərbaycan dostluq və qardaşlığına təsir edə biləcəyini nəzərə alaraq fəaliyyətimizi dayandırırıq"

**“Zaman-Azərbaycan” qəzeti və qəzetin zaman.az adlı saytı bağlanıb.**




Musavat.com xəbər verir ki, “Zaman-Azərbaycan” qəzeti təsisçiləri məsələ ilə bağlı bəyanat yayıblar.

Bəyanatda deyilir: “Son günlərdə regionumuzda baş verən hadisələr və bu olayların həssaslığının Türkiyə-Azərbaycan dostluq və qardaşlığına təsir edə biləcəyini nəzərə alaraq biz - ”Zaman-Azərbaycan" qəzetinin təsisçiləri ictimaiyyətin nəzərinə çatdırırıq ki, Azərbaycan dövlətinin və dövlətçiliyinin yanında olduğumuzu bir daha nümayiş etdirərək bu gündən “Zaman-Azərbaycan” qəzetinin və zaman.az saytının fəaliyyətini dayandırmaq qərarına gəlmişik. Təsisçilər: Anar Qaraxançallı, Ürfan Məmmədli, Pənah Abdurahmanlı".

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016



# Türkiyədə qalib kim oldu?

Hüseynbala SƏLİMOV

**Milli faciələr baş verəndə adətən qalib-məğlub axtarmırlar. Amma nə etmək olar? Siyasət siyasətdir və min təəssüf ki, o, qaliblər-məğlublar kimi qəliblər olmadan keçinə bilmir... Həqiqətən də narahat anlar idi. Türkiyədəki hərbi çevriliş cəhdini deyirəm. Şəxsən özüm bütün günü televizorun qarşısında və internetdə keçirtdim - bəli, hamımız Türkiyə ilə nəfəs aldıq...**

İndi demək olar, hər şey sovuşub. Fəqət, həbslərin artması, "vint"lərin bəlkə də lazım olandan da artıq bərkidilməsi haqqında xəbərləri eşitmək də elə də xoş məşğuliyyət deyil...

Nə demək olardı bu olaylarla bağlı? Aydındır ki, hərbi çevriliş cəhdi bütün hallarda pislənilməli və qınanılmalı, qanunla qarşısı alınmalıdır. Azərbaycanda bu, rəsmi səviyyədə deyilib və biz də buna qoşuluruq...

Ona görə ki, bu gün bütün mütərəqqi və siyasi cəhətdən oturuşmuş dünya ölkələrində siyasi problemlərin çözülməsinin bircə yolu vardır - o da demokratik və konstitusion seçkilər yoludur...

Amma iyulun 15-də Türkiyədə baş vermiş müdhiş olay əslində gözlənilən idi. Xeyli müddət idi ki, hökumətlə ordu arasında soyuq savaş gedirdi.

Prezident R.T.Ərdoğanın uzun müddətdən bəri orduya qarşı apardığı zəiflətmə və "təmizləmə" əməliyyatlarına, ordu içindəki dünyəvi hərbi elitanın mövqelərinin zəiflədilməsinə, ölkənin faktiki olaraq islamlaşdırılmasına, konstitusiya və siyasi sistemlə bağlı yürüdülən bəlli siyasətə, böyük M.K.Atatürkü və onun ideallarını izafi dərəcədən də artıq "təftiş etmək" və onlara qarşı tam sayğısızlıq göstərmək cəhdlərinə ordunun bir cavabı olmalı idi...

Fəqət, qiyam edən ordu hissəsi də sanki bir məsələni tamam yaddan çıxartmışdı - o, da budur ki, hər şeydən üstün olan millətin demokratik seçkilərdə və referendumlarda izhar etdiyi iradədir...

Ordu da dövlət institutu, xüsusən də demokratik dövlətin atributu kimi  bu iradə ilə hesablaşmalıdır...

Bir daha deyirik ki, millətin iradəsi hər şeydən üstündür. Bu baxımdan sözsüz ki, Ərdoğan hakimiyyəti legitim və qanuni hakimiyyətdir - buna sözümüz yoxdur...

Amma hakimiyyət ölkənin konstitusion quruluşunun əsaslarını dəyişməyə çalışırsa (Ərdoğan iqtidarı bu niyyətini qətiyyən gizlətmir!), onda necə, ordu yenə də hər şeyi sakitcə seyr etməlidirmi? Doğrusu, çox çalışdıq, amma bu sualı verməkdən özümüzü heç cür saxlaya bilmədik...

Fəqət, bütün hallarda biz də düşünürük ki, Türkiyə böyük fəlakətdən qurtuldu - ən azı ona görə ki, proseslər bir az da genişlənərək vətəndaş müharibəsinə çevrilərdi, çünki, necə deyər, silah bir əldə deyildi. Hətta elə indiki itkilər də - yüzlərlə insanın həlak olması və ya yaralanması da çox böyük faciədir...

Amma bəzi məqamlar bizə hələ də dumanlı, hətta bir az da qaranlıq görünür. Doğrudanmı, olay Türkiyə hökuməti üçün qəfil bir hadisə idi? Doğrudanmı, hökumətin bundan xəbəri yox idi? Belə idisə, təhlükəsizlik strukturları, MİT və yaxud da ki, hərbi kəşfiyyat hara baxırdı?..

Hal-hazırda deyirlər ki, demokratiya zəfər çaldı... Amma hərbi çevriliş cəhdlərindən sonra heç bir vaxt dərhal demokratiya olmur - çevriliş baş tutanda da, hətta tutmayanda da, qarşısı alınanda da...

Hər iki halda kütləvi həbs və təqiblər dalğası başlayır, məhdudiyyətlər və yasaqlar tətbiq olunur - onlar hətta müvəqqəti xarakter daşısa belə! Artıq 8000-dən çox adamın həbs edildiyi deyilir, mən hələ vəzifəsindən kənarlaşdırılanları, "qara siyahı"lara düşənləri demirəm...

Mənə yüzlərlə hakimin işdən qovulması və hətta həbs edilməsi xüsusilə müəmmalı göründü. Qiyam etmiş hərbçilərin həbs olunmasını başa düşdük - bununla bağlı iradımız yoxdur. Amma hakimlərin bura nə dəxli vardı?..

Bəlkə də bunu etmək üçün hakimiyyətin ciddi arqumentləri mövcuddur. Di gəl, mən başqa bir şey düşündüm: hakimiyyət əlinə düşmüş fürsətdən dərhal yararlanmağa və məhkəmə sistemi ilə özünün çoxdankı haqq-hesabını və ya problemini çözməyə, məhkəmə hakimiyyətini də öz əlinə almağa çalışmır ki?..

Prezidentlə məhkəmələr arasında da çoxdan böyük problemlər yaşanırdı. Məhkəmə hakimiyyəti hətta bir neçə dəfə prezidenti bərk narazı da salmışdı. Üstəlik, bu gün icraedici və qanunverici hakimiyyət prezidentin, necə deyər, əlindədir. Təkcə məhkəmə hakimiyyəti kənarda qalırdı. Bütün bunlar o demək deyilmi ki, icraedici hakimiyyət fürsətdən istifadə edib məhkəmə hakimiyyətinin də müstəqilliyinə son qoymaq istəyir?...

Üstəlik, belə bir detalı da vurğulayaq ki, Türkiyədəki atatürkçü hərbi elita həmişə qərbçiliyi, Qərbə bağlılığı ilə, əsl demokratiyaya və bazar iqtisadiyyatına sayğısı ilə seçilib! Unutmayaq ki, bu, adi ölkənin ordusu deyil, NATO üzvünün ordusudur!..

Bəli, R.T.Ərdoğanın ardıcıl "təmizləmə" əməliyyatlarından sonra ordu haqqında belə yüksək fikirlər izhar etmək getdikcə çətinləşir və bəlkə də bu olay atatürkçü ordunun son nəfəsi idi...

Daha bir detalı da qeyd edək. Türkiyədə hərbi çevrilişlər çox olub. İndiki 1960-cı ildən bəri sayca beşinci idi. Amma heç vaxt Türkiyədə uzunmüddətli hərbi diktaturalar, Latın Amerikasında olduğu kimi, hərbi xuntalar bərqərar olmayıb - qayda-qanun yaradılandan sonra çox tez bir zamanda hakimiyyət mülki qüvvələrə verilib...

Doğrusu, Ərdoğanı siyasətçi kimi çox da sevmirik - güman, subyektiv münasibətimizi açıq demək daha düzgün olardı. Düşünürük ki, bu adam məmnuniyyətlə özünü xəlifə elan edərdi! Onun Osmanlı dövrünə sevgisi (bəzən adama elə gəlir ki, hətta bu da sünidir!) hələ çox acılar yaşadacaq Türkiyəyə...

O, ölkəni az qala, hamı ilə qarşı-qarşıya qoyub. Düzdür, bunda daha çox keçmiş baş nazir Əhməd Davudoğlunu qınayırlar, amma Ərdoğanın suçu heç də onunkundan az deyildi...

İndi rus təyyarəsinin vurulmasını da "gülənçi" hərbçinin üstünə atmaq istəyirlər. Əgər belə idisə, niyə o vaxt nə baş nazir, nə də prezident özü vəziyyəti korrektə etməyə cəhd göstərmədi? Edə bilərdilər axı!.. Rusiya heç nə istəmirdi, yalnız üzrxahlıq tələb edirdi!..

Amma yenə də hesab edirik ki, konkret olaraq Ərdoğana gəldikdə, Türkiyə cəmiyyəti ona münasibətini demokratik seçkilərdə izhar edə bilər -  şükür, seçkiləri hələ heç kim ləğv etməyib...

Ən maraqlısı da elə odur ki, bu siyasətçiyə həqiqətən də səs verirlər! Bir az öncə dedim ki, seçkiləri hələ heç kim ləğv etməyib...

Eyni məntiq və ardıcıllıqla demək olardı ki, seçkilərin saxtalaşdırılması ilə bağlı da hələ bu vaxta qədər hər hansı bir məlumat eşitməmişik...

Deməli, səs verirlər və hakimiyyətin yetərincə elektoral dəstəyi var. Heç təsadüfi deyildir ki, bəzi ölkələrin son olaylara münasibətində, azacıq da olsa, məyusluq sezilsə də, son anda hamı yenə də cəmiyyətin qiyamçılara deyil, məhz Ərdoğana dəstək verdiyini etiraf etməli oldu...

Başqa nə demək olar? Adam özünü inandırmaq istəyir ki, hər şey yaxşı olacaq və Türkiyə bundan sonra da dünyəvi və demokratik dövlət olaraq qalacaq. Amma qalacaqmı?..

Yazının başlığındakı sualı isə açıq saxlayıram. Qoy, hamının bu suala öz cavabı olsun...

# Azərbaycanda Türkiyə Silahlı Qüvvələri üçün yer ayrıldı

## Ölkə başçısı bununla bağlı protokolu təsdiqlədi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililərin, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binasının Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılması haqqında protokolun təsdiq edilməsi barədə fərman imzalayıb.**

Fərmanda Azərbaycan Müdafiə Nazirliyinə protokolun müddəalarını həyata keçirmək tapşırılıb.

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililərin, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binasının Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılması haqqında protokol 2016-cı il iyunun 3-də Bakı şəhərində imzalanıb.



# Rusiya Ermənistanla birgə qoşun qruplaşmasını niyə yaradır...

## Ehtimal edilir ki, bu birinci növbədə NATO üzvü olan Türkiyə ilə sərhədlərdə hərbi iştirakı gücləndirmək məqsədi güdür

**Rusiya Silahlı Qüvvələrinin Baş qərargahının baş əməliyyat idarəsinin vəzifəlilərindən ibarət nümayəndə heyəti Ermənistandadır.**



Virtualaz.org "Nezavisimaya qazeta"ya istinadən xəbər verir ki, səfərdə məqsəd Ermənistan-Rusiya birgə qoşun qruplaşmasının yaradılmasına dair yekun müzakirələr aparmaq və müvafiq sənədi imzalamaya hazırlamaqdır. Bu haqda Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti bildirir.

Birgə qoşun qruplaşmasının komandanının kim olacağı artıq məlumdur-bu, Ermənistan ordusunun Türkiyə və Naxçıvanla sərhədə cavabdeh olan 4-cü korpusunun keçmiş komandanı, general-mayor Andranik Markaryandır.

Bəs Ermənistanla Rusiyanın birgə qoşun qruplaşması yaratmasının məqsədi nədir? Bu qruplaşmaya hansı qoşun birlikləri və hissələri daxil olacaq? Bu suallara hələ cavab verən yoxdur. Bununla belə, istisna deyil ki, qoşun qruplaşması Ermənistan ordusunun 4-cü korpusunun və Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının əsasında formalaşdırılacaq.

Qəzet qeyd edir ki, 102-ci bazanın sərəncamında 3 motoatıcı polk, özüyeriyən artilleriya polku və tank batalyonu, habelə "Qrad" və "Smerç" reaktiv yaylım atəşi sistemləri ilə təchiz edilmiş diviziyonlar, kəşfiyyat batalyonu, digər yardımçı hərbi bölmələr var. Bundan əlavə, Ermənistanda Rusiyanın S-300B sistemləri ilə təchiz edilmiş əlahiddə zent-raket diviziyonları, habelə bir neçə eskadrilya döyüş vertolyotları və qırıcıları var. Rusiyanın Ermənistandakı birləşmələrinin canlı qüvvəsinin sayı 4 min nəfərdən çoxdur.

Rusiya Quru Qoşunlarının Baş qərargahının keçmiş qərargah rəisi, Qarabağ müharibəsinin iştirakçısı olan general Norat Ter-Qriqoryants "Nezavisimaya qazeta"ya şərhində deyir ki, birgə qoşun qruplaşmasının yaradılması "yaxşı qərardır". Çünki bu qruplaşma NATO-nun Rusiya sərhədləri yaxınlığında silah silkələməsinə və Qarabağ münaqişəsinin yenidən alovlanmasına imkan verməyəcək.

Qeyd edək ki, Rusiya NATO-nun Şərqi Avropa və Baltik ölkələrinə hərbi qüvvələr yerləşdirmək planlarına qarşı cavab tədbirləri görəcəyini bəyan edib. Belə cavab tədbirlərindən biri Rusiyanın NATO ilə sərhədlərdə 3 yeni diviziya formalaşdırmasıdır. Həmin diviziyaların ikisi Qərb istiqamətində, biri isə Cənub Hərbi Dairəsində təşkil olunacaq.

Cənub Hərbi Dairəsinə o cümlədən Ermənistandakı Rusiya qoşunları daxildir. Bu baxımdan, ehtimal edilir ki, Rusiyanın Ermənistanla birgə qoşun qruplaşması yaratması birinci növbədə NATO üzvü olan Türkiyə ilə sərhədlərdə hərbi iştirakı gücləndirmək məqsədi güdür. Lakin eyni zamanda Rusiya Qarabağda mümkün irimiqyaslı müharibə zamanı Ermənistanın tərəfində döyüşə girməyə hazır olduğunu da nümayiş etdirir.



# Həmsədrlərin Ankara görüşü təxirə salınıb

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Türkiyədə nəzərdə tutulan görüşü təxirə salınıb.**

APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə amerikalı həmsədr Ceyms Uorlik bildirib: "Hazırda görüşün tarixini nəzərdən keçiririk".

Qeyd edək ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla keçirdiyi mətbuat konfransında həmsədrlərin münaqişənin həlli ilə bağlı aparılan danışıqlar barədə Türkiyə tərəfini məlumatlandıracağını bildirmişdi.

**Türkiyədə baş verən 15 iyul qiyamından sonra hər keçən gün Amerikanın Pensilvaniya ştatında yaşayan din xadimi Fətullah Gülənin ekstradisiyası ilə bağlı proseslər sürətlənir. Türkiyə hökuməti hərbi çevriliş cəhdində onun əlinin olduğunu iddia edərək, ABŞ-dan Gülənin geri qaytarılmasını tələb edir.**

# Azərbaycanın Pensilvaniyası haradır?

## Fəzail Ağamalı: "Bu gün Gülənin Türkiyə üçün törətdiyi təhlükə Rəsul Quliyev tərəfindən Azərbaycanda yaşanmaz..."

Bütün bunlar Azərbaycanda da maraqla izlənilməklə yanaşı, bir çox məsələləri gündəmə gətirib ki, onlardan biri də Azərbaycanın Pensilvaniyasının hara olmasıdır. Çünki vaxtilə ölkəmizi tərk edən tanınmış siyasətçilər var. Onların içərisində ilk göz önünə gələn isim sabiq spiker, hazırda Amerikada mühacirətdə yaşayan Rəsul Quliyevdir. Sabiq spiker indinin özündə də Azərbaycanda öndə gedən və kifayət qədər elektorata sahib olan siyasətçilərdən sayılır. Bu baxımdan, Azərbaycanın Pensilvaniyasının ABŞ olduğunu düşünənlər də var. Zamanında belə fikirlər iki yerə ayrılmışdı. Pensilvaniyamızın Rusiya olduğunu düşünənlər az deyildi. Buna səbəb də Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibovun bu ölkədə yaşaması idi. Sonradan onun ölkəyə gəlişinə icazə verildi və bu fikirlər aradan qalxdı. İndi bütün diqqətlər Amerikanın üzərində cəmləşib. Doğrudur, mühacir kimi olmasa da, digər xarici ölkələrdə yaşayan və Azərbaycan siyasətində kifayət qədər məşhur olan şəxslər də var. Bunların da sırasına sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevi daxil etmək olar. Rövşən Cavadovun qardaşı, OMON hadisələrinə görə ölkədən qaçan, hazırda Avstriyada yaşayan Mahir Cavadov da bu silsilədəndir. Amma istənilən halda Rəsul Quliyev amilinə görə ABŞ önə çəkilir.



**Fazil Mustafa:** "Rəsul Quliyev vasitəsilə ABŞ-ın, eks-prezidentin əli ilə Rusiyanın..."

**İqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, Azərbaycanın zamanında Pensilvaniyası Amerikada yaşayan Rəsul Quliyev olub:** "Rəsul Quliyev haqqında cinayət işi açılmasına baxmayraq, o da Amerikaya sığındı və Azərbaycan dövlətinə verilmədi. Onun cəhdləri, 2005-ci ildə hakimiyyəti parlament yolu ilə ələ keçirmək planı iflasa uğradı. İndi olmasa da, vaxtilə bu rolu Ayaz Mütəllibovun timsalında Rusiya oynayırdı. Lakin sonradan o, ağ bayrağını qaldırdı və ölkəyə gəldi. Hazırda dinc şəkildə həyatına davam edir. İndiki durumda Azərbaycanın narahatlıq doğuran belə bir problemi yoxdur. Zamanında müəyyən problemlər yaradılmağa cəhdlər edilsə də, ulu öndərimiz Heydər Əliyevin müdrik siyasəti bunun qarşısına sədd oldu. Bu gün də həmin müdrik siyasəti davam etdirən İlham Əliyevin çevik siyasəti bu cür müxalifətin ölkəmiz üçün problemlər yaratmaq imkanlarını tamamilə sıfırlayır. Ona görə də belə bir təhlükəmiz yoxdur. Təəssüf ki, Türkiyədə belə hadisə yaşandı, amma qardaş ölkə də bu təhlükədən qurtuldu. Rəcəb Tayyib Ərdoğan cənabları bu təhlükənin kökünü tamam kəsəcək. Güləni yaşadığı yuvadan çıxarıb Türkiyəyə gətirmək lazımdır ki, bu problem tamamən həll olunsun. O, nə qədər ki, həbsxanada olub cəzasını çəkməyib, yenə də Türkiyə üçün bu cür problemlər yarada bilər".

**Deputat Azərbaycan və Türkiyənin bu məsələdə müqayisə edilməsini doğru saymadı:** "Ölkə başçısı tərəfindən iqtisadi cinayətkarlıqla bağlı məsələlər Cinayət Məcəlləsindən çıxarıldı. Bunun nə dərəcədə Rəsul Quliyevə şamil olunacağını deyə bilmərəm. Amma bu gün Gülənin Türkiyə üçün törətdiyi təhlükə Rəsul Quliyev tərəfindən Azərbaycanda yaşanmaz. Çünki Quliyevin ölkəmizdə sosial dayaqları yox dərəcəsindədir. Öz yaxınlarından başqa kimsə onun yanında deyil. Bu təhlükə yoxdursa, onun Gülənlə müqayisə edilməsini doğru saymıram. Çünki Azərbaycanda Quliyev təhlükəsi yoxdur. Kənardan hər hansı bir qüvvənin Azərbaycanda bu cür hadisələr törədəcəyi mümkün deyil. Ölkəmizdə ayrı-ayrı dövlətlərin maliyyəsi ilə dolanan qüvvələr var. Amma onlar güc və söz sahibi deyillər. Gülən tamam fərqli şəxsdir. Onunla bağlı Türkiyənin ordusunda, məhkəmə sistemində, ali təhsil ocaqlarında görün nələr ortaya çıxır. Görün nə qədər böyük şəbəkəsi var. O, tamam sıradan çıxarılacaqmı, bu sual bir qədər problemli görünür. Cənab Ərdoğan bunun fərqindədir. Amma bu təhlükəni tamam aradan qaldırıb, düşünmək lazımdır ki, nədən Gülən bu qədər geniş imkanlara malik oldu. Əkilmiş toxumlar cücərməməlidir. Çünki burada yad toxumlar cücərmir. Siyasi mühitimiz bu problemləri tamam sıradan çıxarda bilir".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa Azərbaycan müxalifətçilərinin indiyə qədər sığındıqları ölkələrin müxtəlif olduğunu qeyd etdi:** "Azərbaycanda bu cür çevriliş cəhdləri daha çox 1994-cü ildə olub. Burada kənar ölkələrin təsiri daha çox deyilsə də, daxildəki qüvvələr aktuallığını proseslərdə qorudular. OMON hadisələri buna misal ola bilər. Zamanında sabiq spiker vasitəsilə ABŞ-ın, eks-prezidentin əli ilə Rusiyanın Azərbaycanda hansısa proseslər həyata keçirdiyini demək çətindir. Türkiyədə situasiya tamam fərqlidir. Orada ideoloji zəmində mübarizə gedir. Azərbaycanda isə bu mübarizə demək olar ki, yoxdur".

❑ **Cavanşir ABBASLI**

# İqtidar müxalifəti birləşdirə biləcəkmi?

**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsi haqqında imzaladığı sərəncam gündəmi dəyişib. İqtidarın ölkə müxalifətinə birlik yolunda növbəti şans verdiyini desək, yanılmarıq.**

Çünki yaxın gələcəkdə Azərbaycanda referendum keçiriləcək ki, bu proses demokratik düşərgəni yaxından maraqlandıracaq. Belə ki, konstitusiyada prezidentlik müddəti 5 ildən 7 ilə qədər qaldırılacaq. Müxalif kəsim bu proseslərdə ya iştirak edəcək, ya da boykot qərarı verəcəklər. Müxalifətin referendumda iştirak edəcəyi təqdirdə isə böyük birliyin yaranması gündəmə gələcək. Çünki burada hansı siyasi qurumun üzvü və ya rəhbəri olmalarından asılı olmayaraq, həmfikirlilik var. O zaman referendumda iştirakla bağlı yaradılacaq təşəbbüs qruplarında çoxsaylı siyasi qurumların təmsil olunması böyük birliyin yaranmasına səbəb ola bilər.



**İqbal Ağazadə:** "İndidən demək çox çətindir"



**Mirmahmud Mirəlioğlu:** "Nə ehtiyac var?"



**Tofiq Yaqublu:** "Situasiya bunu diktə edir"



**Qabil Hüseynli:** "Birliyə böyük ehtiyac var"

**Ümid Partiyasının sədri İqbal Ağazadə birlik barədə danışmağın çətin olduğunu söylədi:** "Bu istiqamətdə ümumi məsləhətləşmələr, müzakirələr aparılmır. Referenduma qarşı ümumi abı-hava hiss olunur. Amma bunun birlik olacağını indidən demək çox çətindir. Həmişə belə şanslarımız çox olub. Amma o şanslar buraxılıb".

**KXCP sədri Mirmahmud Mirəlioğlu hakimiyyətin referendum yolunda əziyyət çəkməsinə ehtiyacın olmadığını düşünür:** "Buna nə ehtiyac var? Onsuz da Azərbaycan hakimiyyətinin hakimliyi mütləqdir. Ayrı-ayrı vaxtlarda qondarma referendumlar keçirilir, qərarlar qəbul edilir. Hakimiyyət istədiyinə nail olur. Bunun üçün pul xərcləməyə, əziyyət çəkməyə ehtiyac yoxdur. Zaman gələr ki, nə sizin sualınıza cavabımıza, nə belə sərəncamlara, nə də müxalifətin əziyyətinə ehtiyac olmaz. Xalqın özü bir arada olar. Necə ki, aprelin əvvəllərində belə bir birliyin şahidi olduq".

**Müsavat başqanının müavini Tofiq Yaqublu müxalifətin birliyi yönündə ciddi mesajlar verdi:** "Situasiya özü bunu diktə edir. Müsavat Partiyasının referendum aktı ilə bağlı növbədənkənar toplantısı keçirildi. Biz bəyan etdik ki, bu istiqamətdə bütün siyasi qurumlarla əməkdaşlığa hazırıq. Düşünürəm ki, bu olmalıdır. Milli Şura və Müsavatın bu referenduma qarşı qətiyyətlə mübarizə aparacağı şübhə doğurmur. Səylərimizlə mübarizəni birləşdirmək mümkündür. Ümid edirəm ki, Müsavat və AXCP arasında aylar öncədən irəli sürdüyüm birlik təşəbbüsü indi reallaşar. Referendumla bağlı iki yol var. Ya aktiv iştirak, ya da passiv fəaliyyət. Təşəbbüs qrupu yaradıb vətəndaşları referenduma getməməyə çağırırsan. Təşəbbüs qrupu olmadan da bunu etmək olar. Müzakirələr əsasında bunlar reallaşacaq. Bir fakt var ki, referenduma güclü dirəniş olacaq".

**Politoloq Qabil Hüseynli müxalifətin siyasi inteqrasiya yolunu seçməsini mövcud vəziyyətin tələb etdiyini bildirdi:** "Ümumi məqsəd uğrunda birliyə böyük ehtiyac var. Amma buna inamım o qədər də yüksək deyil. Çünki müxalifət daxilində hədəflərdən, xalqdan uzaqlaşma, eləcə də şəxsi maraqların üzərində mübarizə aparmaq ideyası hakimdir. Bunların hamısı siyasi liderlərin xarakterləri və əhval-ruhiyyələri ilə bağlıdır. Onların ictimai-siyasi vəziyyətə baxışları da buna səbəbdir. Bu baxışları formalaşdıran çoxsaylı məsələlər var. Fakt faktlığında qalır ki, bu gün siyasi müxalifət müxalifətçilik missiyasına peşə kimi yanaşır. Siyasi müxalifətin missiyasını, praktikasını, ideologiyasını həyata keçirməkdə kifayət qədər acizlik nümayiş etdirirlər. Bu səbəbdən qarşıdakı zamanlarda onların siyasi situasiyanı necə dəyərləndirəcəkləri barədə nəsə deməyə çətinlik çəkirəm. Hətta deyərdim ki, bu məsələlərlə bağlı ciddi şübhələrim var".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016



# Qafqazın lider dövlətində universitet

Zamin HACI
zaminhaci@gmail.com

**Konstitusiyaya yeni dəyişiklik projesində prezidentlik müddətini 7 il eləmək fikirləri var. Bunu əsaslandırmağa heç bir ehtiyac yoxdur, dünənki yazımda qeyd elədiyim kimi, hər şey əlahəzrətdən asılıdır: istəsə ömürlük olar, biz nə deyə bilərik? Ancaq Molotov kokteyli ilə Kiyev kotletini qarışdıran məşhur deputatxana üzvümüz Səyavuş müəllim - onu tam əsasla Azərbaycan parlamentarizm tarixinin siması saymaq olar, çünki yalan olmasın, 25 ildir deputatdır - təklifi şərh eləmək istərkən quş buraxıb. Deyib Fransada da prezidenti 7 illik seçirlər, bizdə niyə olmasın?**

İşin yaş tərəfi odur ki, Fransa prezidenti 7 illiyə seçmək qanununu 2002-ci ildə ləğv eləyib, o vaxtdan bəri Fransa prezidentləri 5 illik seçilir. Əlbəttə, Səyavuş müəllim "Fransada kral Lüdovik rəhbərdir, bizdə də kral olsun" deyə bilərdi, bizim etirazımız yoxdur. Ancaq bizim şanlı AMEA Səyavuş müəllimə bu biliklərinə görə siyasət elmləri doktoru adı veribsə, bir az xəcalət çəkməlidir. Çünki bu savadla Səyavuş müəllim siyasi elmlər akademiki olmalıydı. Neynək, hələ vaxt var. Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir.

Müstəqillik demişkən, dünən Qafqaz Universitetini də bağladılar. Ərdoğanın xoşuna gəlməyən qüvvələrin yaratdığı və işlətdiyi nə varsa bağlanacaq. Əgər ANS kimi üzü üzlər görmüş telekanal bu qovğadan sivişib çıxa bilmədisə, vay qalanların halına. Görün təzyiqlər hansı səviyyədədir. Dəli şeytan deyir bəlkə bizim konstitusiya da Ərdoğanın göstərişi ilə dəyişdirilir? Nə biləsən. Biri zəng vurub torpaq davamızı yatızdırır, başqası kimdən intervü alacağımıza göstəriş verir, üçüncüsü də gəlib Kərbəlayının sözü olmasın, deyəcək ver papağını, qoyum başıma. İmkan verməzlər üçrəngli bayrağımızla məsud yaşayaq.

Qafqaz Universitetinin bağlanmasına hansı səbəb göstərəcəklər, nə bəhanə tapılacaq, maraqlı deyil. Maraqlı olan odur ki, əgər bu universitet ölkənin ən reytinqli, babat məktəblərindən biri idisə, öz xərcini-borcunu ödəyirdisə niyə bağlandı? Bəs indi Türkiyəni Azərbaycanla birləşdirən nə qalıb? 90-cı illərdə pis-yaxşı qoyulmuş beş-on türk sərmayəsi də çəkilib gedibsə, indi Azərbaycan-Türkiyə münasibətlərini neftin qiyməti düşəndən bəri mənəvi baxımdan deşilmiş Bakı-Ceyhan kəmərindən özgə nə ifadə edir? Əlbəttə, bizim yapistlərin İzmir bölgəsində-filanda bəzi yatırımları var. Üstəlik, neftxudalarımızın Quşadasında, Bodrumda villa kompleksləri tapılır arada. Ancaq bunlar dövlət, xalq bağlantıları sayıla bilməz. Dövlətlərarası münasibətlərin ən dəyərlisi təhsil sektorunda əlaqələrdir. Kitab, media bağlantılarıdır. Dildə, mədəniyyətdə birlikdir. Bunu məhv elədilər. Türkiyə-Azərbaycan yaxınlaşmasını yenidən dönər-neft əlaqəsinə döndərdilər.

Əlbəttə, mən Qafqaz Universitetinin sudan çıxan ağ qaşıq olmasını iddia etmirəm. Ümumiyyətlə, Azərbaycan kimi ölkədə hansısa universitetdən danışmaq gülüncdür. Universitet elm, fikir, müstəqil düşüncə, azad dünyagörüşü, sərbəst gənclik mühitidir. Bizdə bunların heç biri yoxdur. Universitetlər gənc beyinləri ət maşınından keçirib yapizm üçün kotlet qayıran kombinatlar kimi bir yer idi. Bir anekdotdan parafraz eləsək, kolbasanı bu yandan salırdın, o yandan donuz çıxırdı. Ancaq ictimai sektorda tanıdığımız beş-altı müstəqil düşüncəli insanın oranı bitirməsi Qafqaz Universiteti üçün təəssüf eləməyimizə səbəb olur. Həm də istənilən ən pis məktəb belə başqa obyektdən işıqlıdır. Məktəb bağlanan yerdə cəhalətin ağzı açılır. Təhsil zülmətə dönəndə qorxu dikəlir. Sizcə Əfqanıstan və Pakistandakı dini terrorçular təhsil almaq istəyən gənc qızların üzünə turşunu təsadüfənmi atır? Yox. Onlar bilirlər ki, təhsil nuru çoxalanda vampirlər kimi külə dönəcəklər. Azərbaycanda universitet bağlayan "təfəkkürlərin" həmin talibançılardan heç bir fərqi yoxdur.

# Dost-müttəfiqlərin səfi mühüm düzəlişlər ərəfəsində




## Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağı yaranır - sensasion iddia, erməniyə bəd müjdə...

### Rusiyalı tanınmış analitikə görə, 15 iyul uğursuz çevriliş cəhdindən sonra Türkiyənin əsas oriyentiri ABŞ yox, Rusiya olacaq; Qarabağ məsələsi ətrafında da unikal situasiya yaranmaqdadır

**Türkiyədə baş vermiş uğursuz hərbi çevriliş hadisəsi dünya gündəminin əsas mövzusu olaraq qalır. Bu da səbəbsiz deyil. Çünki Türkiyə sıradan bir dövlət deyil, regional supergücdür, NATO üzvüdür, bölgədə gedən proseslərdə vazkeçilməz rola malik, Qərblə Şərq arasında qərar tutan böyük regional ölkədir.**

Söhbət həm də Ankara ilə Moskva arasındakı spesifik, təzə-təzə normallaşan münasibətlərdən gedir. Bu xüsusda Türkiyədəki hərbi qiyam gerçəkdən də yeni və maraqlı situasiya yaradıb. Bir çox siyasi şərhçilərə görə, hərbi çevrilişdə "Amerika izi"nin üzə çıxması Ankara və Moskvanın sürətlə yaxınlaşması, hətta yeni bir hərbi müttəfiqlik yaratması üçün əlavə imkan açıb və bu imkan Bakının da xeyrinə işləyə bilər.

***

**Rusiyalı tanınmış tarixçi-analitik Oleq Kuznetsov məhz bu qənaətdə olanlardandır. Onun 15 iyul olayı ilə bağlı maraqlı təhlili var.**

Politoloq deyir: "Qiyamdan sonra özünün ilk mətbuat konfransında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan elədi ki, dövlət çevrilişinə cəhd 1999-cu ildən ABŞ-da yaşayan imam Fətulla Gülənlə bağlıdır. Bununla da o, qiyamın təşəbbüsçüsünü və onun havadarını birbaşa göstərmiş oldu. Ərdoğanın sözlərinə görə, qiyama cəhdi Birləşmiş Ştatların geosiyasi maraqları çərçivəsində hərəkət edən türkiyəli hərbçilərin kiçik bir hissəsi həyata keçirib. Bunun ardınca baş nazir Binəli Yıldırım bəyan elədi ki, qiyamın başında ABŞ-da hərbi təhsil almış və orda dəfələrlə hərbi hazırlıq keçmiş Türkiyə HHQ komandanı, general Özdemir durub. Bu bəyanat Ankara və İstanbulda dövlət çevrilişi cəhdinin əsas siyasi yekunudur" - analitik vurğulayıb.

**Onun əminliyinə görə, qiyam cəhdinin Ankara-Moskva münasibətlərinin istiləşməyə başladığı dövrə düşməsi də təsadüfi deyil və Qərbin Rusiya-Türkiyə yaxınlaşmasına cavabıdır.**

"15 iyul çevriliş cəhdi ilə bağlı Ərdoğanın zəng elədiyi ilk dünya lideri Rusiya prezidenti Vladimir Putin oldu. Bu jest olduqca əlamətdar olmaqla özlüyündə çox şey deyir. Yeri gəlmişkən, Türkiyədə baş verənləri ilk olaraq dövlət çevrilişinə cəhd adlandıranlardan biri Azərbaycan prezidenti İlham Əliyev idi. Belə görünür, Türkiyə üçün indi əsas oriyentir məhz Rusiya olacaq, ABŞ yox. Şəxsən mən buna çox sevinərdim. Mən artıq çoxdan - 2013-cü ildən Qara dəniz-Qafqaz regionunda Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağının yaradılması ideyasını təbliğ edirəm. Və bunu həm şifahi, həm də yazılı şəkildə elmi konfranslarda və elmi-publisistik məqalələrdə qeyd edirəm", - deyə Oleq Kuznetsov vesti.az-dakı müəllif məqaləsində bildirir.

**Ekspertə görə, belə bir hərbi-siyasi blokun yaradılması zərurəti indi artıq onun bütün potensial iştirakçıları, ilk növbədə də Türkiyə üçün daha aydın görünür.** "Mənim əvvəllər öz mahiyyətinə görə ağılsız və mümkünsüz görünən, haqqında "belə bir şey mümkün deyil, çünki heç vaxt mümkün deyil" deyilən tezisim getdikcə daha da həyat qabiliyyətli olur" - təhlilçi ardınca qeyd edib.

Onun fikrincə, Türkiyədə baş tutmamış dövlət çevrilişi cəhdindən sonra hamı tarixi bir eranın astanasındadır. "Hər halda, ən azından Qara dəniz-Qafqaz regionu üçün belə bir gözlənti var" - tarixçi-ekspert əlavə edib.

***

Türkiyə-Rusiya yaxınlaşması və ya Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağının yaradılması sözsüz ki, Qarabağ məsələsinə də birbaşa təsir edən amildir və münaqişə ətrafında yeni, unikal bir situasiyanın formalaşmasına gətirə bilər. Eyni zamanda işğalçı Ermənistan üçün sensasion sayılacaq, onun təlaşını artıracaq bir gəlişmədir. Çünki İrəvan həmişə bu yaxınlaşmadan, Qarabağ konfliktinin pərdəarxasında onun maraqlarına zidd müstəvidə həll perspektivindən ehtiyat edib.

Qarabağ müstəvisində Türkiyə-Rusiya yaxınlaşması isə ikitərəfli əlaqələr qaydaya düşəndən dərhal sonra özünü göstərməyə başlayıb. Təsadüfi deyil ki, Rusiya XİN başçısı Sergey Lavrovun İrəvan səfəri ilə bağlı belə bir məlumat yayılmışdı ki, Moskva Ankaranın da prosesə qatılmasına isti yanaşır.

**Lavrovun İrəvan səfərindən cəmi bir neçə gün sonra isə Kremlin danışan dillərindən hesab olunan və həmişə anti-Türkiyə bəyanatları ilə tanınan Vladimir Jirinovski bu dəfə 180 dərəcə fərqli və sensasion açıqlama vermişdi. Azərbaycan telekanallarından birinə verdiyi müsahibədə o demişdi:** "Əgər Türkiyə və Rusiya səylərini birləşdirsə, kürd və erməni məsələləri öz-özünə həll olunacaq. Aydın məsələdir ki, Dağlıq Qarabağ problemi də həll ediləcək, Azərbaycan bundan razı qalacaq. Qarabağ üçün elə bir xüsusi status tapmaq olar ki, həm ermənilər razı qalsın, həm də azərbaycanlılar".

Maraqlıdır ki, təxminən eyni vaxtda Kremlin başqa bir danışan dili, "Avrasiya hərəkatı" və eyni adlı ideyanın əsas müəllifi, politoloq, Rusiya Dövlət Duması sədrinin məsləhətçisi Aleksandr Duqin Türkiyədə olmuşdu və həmişə anti-Türkiyə mövqeyi ilə fərqlənən bu şəxs də qardaş ölkə haqda pozitiv sözlər və Qarabağ məsələsinə dolaysıyla aidiyyəti olan fikirlər səsləndirmişdi.

**Türkiyədə hakim və müxalif partiyalardan olan bir sıra siyasətçilərlə görüşdən sonra Duqin jurnalistlər üçün mətbuat konfransı təşkil edərək, orada regional proseslərdə Ankaranın rolunu yüksək dəyərləndirmiş, eyni zamanda Türkiyə-Rusiya münasibətlərinin pozulmasında ABŞ-ı günahlandırmışdı.** "Vaşinqton öz müttəfiqlərindən heç birinin ərazi bütövlüyünü təmin etmək iqtidarında deyil. Əksinə, bu ölkələrdə xaos, bölünmə yaşanır. Belə bir ssenari Türkiyə üçün də yazılıb" - Duqin Türkiyədə demişdi.

***

O da maraqlıdır ki, bu sözlərdən cəmi bir neçə gün sonra Türkiyədə hərbi qiyam cəhdi oldu və rəsmi Ankara bu cəhddə günahkar qismində ABŞ-ı ilk olaraq barmaqla göstərdi.

Bəs bundan sonra nələr olacaq? Bu sualın cavabı, eləcə də Ankaranın Moskva ilə hara qədər yaxınlaşa biləcəyi, Qarabağ məsələsində iki paytaxtın nə dərəcədə əməkdaşlıq edə biləcəyi və müharibə ehtimalı məsələsi isə yəqin ki, Türkiyə ilə ABŞ arasında Gülən ziddiyyətinin necə çözüləcəyindən asılı olacaq.

❑ Siyasət şöbəsi

# Konstitusiya dəyişikliklərinə Qərbin reaksiyası yoxdur

**Prezident İlham Əliyevin Konstitusiya dəyişiklikləri ilə əlaqədar Referendum Aktı layihəsinin Konstitusiya Məhkəməsinə göndərilməsi barədə sərəncamı ölkə gündəminin əsas müzakirə mövzularındandır. Artıq "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə rəy verilməsi üçün təqdim edilib və yaxın günlərdə məhkəmənin rəyi açıqlanacaq.**



**Ərəstun Oruclu:** "Ola bilər ki, sonra hansısa sövdələşmələr nəticəsində buna göz yumsunlar"



**Arzu Nağıyev:** "Ölkəmiz üçün hər hansı bir problemin yaranacağını düşünmürəm"



**Fəzail Ağamalı:** "Bu dəyişikliklər Azərbaycana qarşı təzyiqlərə əl atmaq üçün əsas yaratmır"

Maraqlısı budur ki, hələlik beynəlxalq təşkilatlar və demokratik ölkələrdən məsələyə hər hansı reaksiya yoxdur. Adətən ayrı-ayrı təşkilatlar Azərbaycanda qanunlara və konstitusiyaya edilən dəyişikliklərlə əlaqədar səsləri ni qaldıraraq təzyiq rıçaqlarını işə salmağa meylli olurlar. Hətta bir sıra hallarda Azərbaycana qarşı sanksiya təhdidləri də işə salınıb. Hazırdakı susqunluq nəyin əlamətidir, rəsmi Bakı konstitusiya dəyişiklikləri ilə bağlı Qərbin "xeyir-duasını" alıb, yoxsa beynəlxalq təşkilatların sükutu "tufanqabağı sükutu" xatırladır?

**Siyasi şərhçi Ərəstun Oruclu "Yeni Müsavat"a dedi ki, bu məsələnin razılaşdırılıb-razılaşdırılmadığını deyə bilməz:** "Amma Azərbaycanda indiyə qədər konstitusiya ilə bağlı müxtəlif manipulyasiyalar olub. Biz görmüşük ki, Qərb dedikdə, ilk növbədə beynəlxalq institutlar buna kifayət qədər sakit və soyuqqanlı yanaşıblar. Əslində bu, hər bir dövlətin formal baxımdan öz daxili işidir. Düzdür, beynəlxalq birliyə üzv olan dövlətlərin müəyyən hüquqi öhdəlikləri, beynəlxalq hüquqla bağlı, qəbul olunmuş demokratik normalarla bağlı öhdəlikləri var. Amma Qərbin buna birbaşa razılıq verməsini güman etmirəm. Çünki təklif olunan dəyişikliklər çox antidemokratik dəyişikliklərdir. Ola bilər ki, sonra hansısa sövdələşmələr nəticəsində buna göz yumsunlar".

**Ə.Oruclu qeyd etdi ki, bir çox hallarda Qərbin siyasəti də müəyyən insanların maraqlarının təmin olunması üzərində qurulur:** "Ona görə də buna tolerant, dözümlü yanaşılsın, barmaqarası baxılsın. Amma belə bir şeyə razılıq verilməsini ehtimal etmirəm". Politoloq bununla yanaşı, əlavə etdi ki, lazım olanda, Azərbaycana təzyiqlər edilməsi zərurəti yarananda bu dəyişikliklər xatırlanacaq.

**Politoloq Arzu Nağıyev hesab edir ki, Qərb əsasən öz narazılıqlarını daima dəyişikliklər qanunlar söykənməyəndə və ictimai rəy nəzərə alınmayanda bildirir:** "Eyni zamanda daima qabardılan məsələlərdən biri də insan haqlarının pozulması ilə bağlı olur. Azərbaycandakı konstitusiya dəyişikliklərinə gəldikdə isə Azərbaycan prezidenti tərəfindən təklif edilən bu dəyişikliklər ilk növbədə Konstitusiya Məhkəməsinə göndərilir və müvafiq prosedurlardan keçdikdən sonra ümumölkə referendumu keçirilməsi ilə bağlı qərar qəbul olunmalıdır. Yəni burada elə bir qanun pozuntusu və ya vətəndaşların hüquq və azadlıqlarının pozan məqamlar yoxdur və Qərb də öz növbəsində heç bir irad tuta bilməz. Sadəcə olaraq, istər Avropa İttifaqı, istərsə də digər beynəlxalq qurumlar tövsiyə verə və ya fikir, rəy bildirər. Dünya praktikasında təklif olunan dəyişikliklərlə bağlı misallar çoxdur və düşünürəm ki, bu təkliflərin verilməsi müasir tələblərin dəyişməsindən, idarəçilikdə daha çevik qərarların qəbul edilməsindən, iqtisadi, siyasi və hərbi durumun sürətlə dəyişməsindən irəli gəlir. Təbii ki, bu təkliflər beynəlxalq qanunlara söykənir və nizamnamələrlə tənzimlənir. Məhz buna görə də ölkəmiz üçün hər hansı bir problemin yaranacağını düşünmürəm. Hər hansı bir mənfi rəyin olmaması da bundan xəbər verir, əks halda, artıq çoxdan biz bunun şahidi olardıq".

**AVP sədri, deputat Fəzail Ağamalı da rəsmi Bakının konstitusiya dəyişiklikləri ilə bağlı Qərb dairələri ilə hər hansı müzakirələr aparıb-aparmadığı barədə məlumatsız olduğunu bildirdi:** "Ancaq düşünürəm ki, Azərbaycan müstəqil dövlətdir, konstitusiya dəyişikliyi onun müstəsna səlahiyyətinə aiddir. Son söz sahibi də Azərbaycan xalqıdır. Ona görə də bunu heç şübhəsiz ki, qəti şəkildə nəzərə almaq lazımdır. Digər tərəfdən, əslində burada qeyri-demokratik heç nə yoxdur. Daha çox ölkəmizdə seçkilərlə bağlı müəyyən məhdudiyyətlər aradan qaldırılıb, daha yumşaq, daha mümkün variantlar nəzərdə tutulub. Parlament və prezident seçkilərində seçilmək istəyənlərin yaş həddinin aşağı salınması kimi məqamlar var. Məncə, buna Avropanın hər hansı bir institutunda etiraz ola bilməz. Prezidentlik müddətinin 5, ya 7 olmasının o qədər də əhəmiyyəti yoxdur. Dünyanın müxtəlif ölkələrində prezidentin səlahiyyət müddəti müxtəlifdir. Əsas məsələ budur ki, bu müddətə iradəni nümayiş etdirən Azərbaycan xalqıdır və konstitusiyada Azərbaycan xalqının iradəsinə qarşı məhdudiyyətlər yoxdur, təsbit edilməyib, edilə də bilməz".

**F.Ağamalı qeyd etdi ki, daha çox maraqlı məqam vitse-prezidentlik institutunun yaradılmasıdır:** "Bir birinci vitse-prezident və bir neçə vitse-prezidentlər postu təsis olunur və bu, mühüm yenilikdir. Mən öz gümanımı axıra qədər açmaq istəmirəm. Daha çox bunu güman edirəm ki, ölkə prezidenti gələcəyə hədəflənən dəyişikliyi zəruri hesab edib. Milli Məclisin buraxılması ilə bağlı da indiyədək konstitusiyada hər hansı maddə yox idi. Ona görə bu məsələ də yenilikdir. Yeni prezidentin təqdimatı ilə Milli Məclisə göndərilib təsdiq edilən vəzifəli şəxslərlə bağlı sənəd düşünülmüş iki dəfədən çox şəkildə səsvermədən keçmirsə, onda iki məqam ortaya çıxır: prezidentin iradəsi, yoxsa Milli Məclisin iradəsi. Azərbaycan prezidentli respublika olduğuna görə, təbii olaraq üstünlük konstitusiya ilə prezidentə verilir".

**AVP sədri hesab edir ki, bu dəyişikliklər Azərbaycana qarşı təzyiqlərə əl atmaq üçün əsas yaratmır:** "Təzyiqlər üçün əsas da yoxdur. Ola bilsin yenə də "orkestr"in ayrı-ayrı skripkaçıları öz alətlərində notdan kənar musiqi ifa edəcəklər - həmişə olduğu kimi, erməni lobbisinin təsiri altında olan, Azərbaycanı istəməyən qüvvələr - lakin mahiyyət etibarilə burada Qərbin istinad edəcəyi, demokratiyaya zidd hər hansı bir məqam yoxdur ki, ondan Azərbaycana qarşı istifadə olunsun, təzyiqlər göstərilsin. Bu, Azərbaycan dövlətinin müstəsna səlahiyyətidir. Konstitusiyaya dəyişikliklər olub, olur və bundan sonra da olacaq. Cəmiyyət inkişaf etdikcə bu cür dəyişikliklər zəruri olur".

❑ **E.PAŞASOY**

---

# ABŞ Türkiyədə niyə hərbi çevrilişə cəhd etsin - əsas motiv

## Ekspertlərə görə, Gülən təkbaşına çevrilişi planlamaq imkanında deyildi; bu da istər-istəməz ABŞ-ın qiyamda əli olduğuna şübhələr yaradır...



**15 iyul Türkiyədə hərbi çevrilişə cəhd hadisələri və bu olayların fonunda baş verən proseslər hələ də dünya gündəmində müzakirə mövzusudur. Türkiyə hökuməti hərbi çevrilişin arxasında ABŞ-da yaşayan dini lider Fətullah Gülənin olduğunu deyir. Artıq Türkiyədə qiyam hadisələrinə görə işdən çıxarılan, həbs edilən müəllim, hakim, polis, hərbçilərin sayı minləri ötüb. Əməliyyatlar ölkənin bütün bölgələrində davam etdirilir.**

Bu əməliyyatlarla yanaşı, Türkiyədə baş verən və hökumətin xalqın dəstəyi ilə qarşısını aldığı hərbi çevrilişin kimlər tərəfindən planlaşdırıldığı əsas müzakirə mövzularından biridir. "Gülən camaatı"nın bu dəstəyi ABŞ-dan aldığını irəli sürən xeyli sayda siyasətçi və politoloq var. Gülən tərəfdarlarının təkbaşına bu işi görə bilməyəcəyinə, bu təşkilatın bu qədər gücə sahib olduğuna inanmayanlar da az deyil.

**Sabiq MTN polkovniki İlham İsmayıl** musavat.com-a açıqlamasında ABŞ-ın bu çevrilişin arxasında dayanması ilə bağlı səsləndirilən iddiaların əsassız olduğunu deyib. Onun sözlərinə görə, ABŞ-ın bu çevrilişdən xəbərdar olması mümkündür, ancaq bu hadisələrin arxasında dayanması inandırıcı deyil: "Bu hadisədən Fətullah Gülənin də xəbəri olub. Ancaq məhz Gülənin Türk Silahlı Qüvvələrinin Hava Komutanlığına məlumat verməsi, əlbir işləməsi və ABŞ-ın da bunun arxasında dayanması kimi bir ehtimal yoxdur. Bu ehtimal daha inandırıcıdır ki, ABŞ xüsusi xidmət orqanlarının, kəşfiyyatının belə bir planın hazırlanmasından xəbəri olub".

**Ekspertin fikrincə, ABŞ bu çevrilişin arxasında olsaydı, cəhd baş tuta bilərdi:** "ABŞ bu hadisələrdən xəbərdar ola bilər. Ancaq bunun dərininə getməyərək hadisələri axarına buraxıb. Çünki faktiki olaraq  Ərdoğanın siyasətinə ABŞ-da simpatiya yoxdur. Ona görə deyirəm ki, əgər ABŞ bu çevrilişin arxasında dursaydı, hərbi qiyam baş tuta bilərdi. Çünki mümkün deyil ki, ABŞ Türkiyədə belə bir boşluqlu plan hazırlasın. Bu məsələnin "Wikileaks"də və "Stratfor"da başqa məqamlarının da gündəmə gəlməsi gözlənilir. Bu hadisələr Rusiya təyyarəsinin vurulmasından sonra baş verdi. Davudoğlunun istefası sıradan bir hadisə deyildi. Ərdoğanın sonradan Rusiyaya  münasibəti, məktub yazması da dolayısı yolla bu işlə bağlıdır. Ona görə də bəzi informasiyaların da dəqiqləşməsini gözləmək lazımdır".

**Sivilizasiyalar və Konfliktlər Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli də F.Gülənin belə bir çevrilişə təkbaşına cəhd edəcəyinə inanmır. Onun fikrincə, Türkiyə hökuməti bu işdə Gülənin tərəfdarının kim olduğunu bilir:** "Ötən əsrin ikinci yarısında istər Camal Gürsel, istərsə də Kənan Evrən tərəfindən baş verən hərbi çevrilişlərin arxasında ABŞ-ın durması sirr deyil. Ümumiyyətlə, Türkiyə generaliteti, ordusu NATO- ya daxil olduqdan sonra ABŞ hərbi istibleşmenti ilə sıx əlaqədədir. Və bu münasibətlərin tarixçəsi artıq yarım əsrdən çoxdur. Son hərbi çevriliş cəhdində Türkiyə hökuməti rəsmən müttəfiqi ABŞ-ı bu məsələdə günahlandırmır. Ən azı hələlik günahlandırmır. Türkiyə ABŞ-dan prezident və baş nazir səviyyəsində Fətullah Gülənin ekstradisiyasını istəyir. Amerikalılar isə əvəzində Gülənin hərbi çevrilişdə əli olduğunun sübutlarını Türkiyədən istəyirlər. Müttəfiqlər indiyə qədər bir-birilərinə günahkar bildikləri şəxsləri təhvil veriblər. Və Türkiyə tərəfi də məhz bunu vurğulayır. Proseslərin maraqlı tərəfi budur ki, NATO tarixində bu ilk dəfədir ki, müttəfiq müttəfiqə günahkar tərəfi verməkdən imtina edir və sübut tələb edir. Bu da istər-istəməz ABŞ-ın qiyamda əli olduğuna şübhələr yaradır. Üstəlik, nəzərə alsaq ki, son vaxtlar Türkiyənin Qərb tərəfdaşları ilə münasibətləri soyuqdur. Görün vəziyyət nə yerə çatıb ki, uğursuz qiyamdan sonra Amerika Türkiyəni NATO-dan xaric etmək mesajları verməyə başlayıb. Açığı, Türkiyə kimi dövlətdə bir ruhaninin hərbi çevriliş etmək gücündə olması inandırıcı deyil. Əgər Gülənin əli varsa belə, o, bu işdə tək deyil. Yəqin ki, Türkiyə iqtidarının da bundan xəbəri var. Amma indiki halda bu məsələdə Türkiyə Amerika ilə açıq-aydın konfrontasiyaya gedib, Ağ Evi qiyama dəstəkdə günahlandırmayacaq. Bu da hazırda Türkiyə üçün anlaşılan addımdır. Lakin Amerikanın Pensilvaniyadakı zatı Türkiyəyə təhvil verəcəyi də inandırıcı görünmür".

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# Bakı Baş Polis İdarəsi hesabat verdi

## 2016-cı ilin birinci yarısında paytaxtda 6.644 cinayət qeydə alınıb; cinayətlərin 79,6%-nin üstü açılıb

**İyulun 20-də Bakı Şəhər Baş Polis İdarəsində 2016-cı ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib. İdarədən virtualaz.org-a verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan Baş İdarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov bildirib ki, yola saldığımız 2016-cı ilin ilk 6 ayı respublikamız üçün əlamətdar olub. "Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində Azərbaycanın uğurlu inkişafı davam edib, sosial-iqtisadi problemlər öz həllini tapıb.**

Bu uğurların əsasını təşkil edən ictimai-siyasi sabitliyin qorunmasında, ölkədə qanunçuluğun və ictimai asayişin təmini sahəsində Daxili İşlər Nazirliyinin (DİN) üzərinə qoyulmuş vəzifələr layiqincə yerinə yetirilib" - deyə o qeyd edib: "DİN-in əsas strukturlarından biri olan Bakı Şəhər Baş Polis İdarəsi ölkənin qanunlarını, Nazirliyin Kollegiya qərarlarını, əmr və göstərişlərini rəhbər tutaraq qarşıda duran vəzifələrin icrasını davam etdirib, şəxsi heyətin məsuliyyət və tələbkarlığın artırılması üçün zəruri tədbirlər görülüb".

Sonra 2016-cı ilin birinci yarısının yekunlarının hərtərəfli təhlil olunduğu, nöqsan və çatışmazlıqların vurğulandığı geniş məruzə müşavirə iştirakçılarına təqdim olunub. Qeyd edilib ki, hesabat dövründə paytaxtda Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə 6.644 (6.008) cinayət qeydə alınıb ki, onların da 83,3%-i (5.536-ı) az ağır və böyük ictimai təhlükə törətməyən, 16,7%-i isə (1.108-i) ağır və xüsusilə ağır növlər olub. 2015-ci ilin eyni dövrü ilə müqayisədə qəsdən adam öldürmələr 16,2%, adam öldürməyə cəhdlər 13,3% azalıb.

Cinayətlərin 79,6%-nin (2015-ci ildə 79,5%), ağır növlərinin 80,7%-nin (79,5%), qeyri-aşkar şəraitdə baş verənlərin 69,2%-nin (69,4%) açılması təmin olunub. Şəxsiyyət əleyhinə olan 923 cinayətdən 96,3%-i (93,5%), o cümlədən qəsdən adam öldürmələrin 96,7%-i (100%), adam öldürməyə cəhdlərin 100%-i (88,9%) açılıb.

2015-ci ilin eyni dövrü ilə müqayisədə ümumi cinayətlərin açılması 0,1%, onların ağır və xüsusilə ağır növlərinin açılması 1,2%, şəxsiyyət əleyhinə olanların açılması 2,8%, o cümlədən adam öldürməyə cəhdlərin açılması 11,1%, qəsdən sağlamlığa ağır zərər vurmaların açılması 7,9%, zorlamaların açılması 20,0%, mülkiyyət əleyhinə olan cinayətlərin açılması 0,8%, o cümlədən dövlət və ya bələdiyyə əmlakı oğurluqlarının açılması 28,0%, mənzillərdən edilən oğurluqların açılması 0,7%, mal-qara oğurluğunun açılması 27,5%, mənimsəmə və israf etmə cinayətlərinin açılması 22,0%, soyğunçuluqların açılması 15,5%, quldurluqların açılması 8,9%, hədə-qorxu ilə tələb etmələrin




açılması 1,8%, xuliqanlıqların açılması 2,7% yaxşılaşıb.

Cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olub. Baş İdarənin və ərazi polis orqanlarının "Təhlükəsiz Şəhər" Xidmətinin operatorları tərəfindən 994 hadisə aşkarlanıb, kameraların arxiv görüntülərindən istifadə edilməklə 278 bağlı cinayət açılıb.

Təqsirləndirilən şəxs qismində axtarışda olan 1.055 nəfərdən 62,5%-i (659-u), ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan 446 nəfərdən isə 47,1%-i (210-u) tutulub. Bununla yanaşı, 44 soyğunçuluq və quldurluq cinayəti törətmiş 59 nəfərdən ibarət 38 qrup, eləcə də mənzillərdən 141 oğurluq törətmiş 75 nəfərdən ibarət 29 cinayətkar qrup ifşa olunub.

Hesabat dövründə 60 odlu silah, 4 qumbara, 1.561 ədəd döyüş patronu yığılıb, əməliyyat yolu ilə qanunsuz saxlanılan və gəzdirilən 36 odlu silah götürülüb. Narkotiklərlə bağlı aşkar edilmiş 721 (840) fakt üzrə qanunsuz dövriyyədən 207 kq-dan çox (2015-ci ilin müvafiq dövründən 14 kq 596 qr çox) narkotik vasitə çıxarılıb.

Paytaxt ərazisində baş vermiş 284 (ötən il 312) yol-nəqliyyat hadisəsində 83 (111) nəfər həlak olmuş, 342 (414) nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 9,0%, həlak olanların sayı 25,2%, xəsarət alanların sayı 17,4% azalıb.

Mülkiyyət əleyhinə olan cinayətlərin, o cümlədən mənzillərdən edilən oğurluqların qarşısının alınmasında mühüm rol oynayan mühafizə-siqnalizasiya vasitələrin tətbiqi üzrə təbliğat işinə də diqqətlə yanaşılaraq, 385 (ötən il 276) müvafiq müraciətdən 285-nin (ötən il 201) icrası təmin olunub.

Paytaxtda ictimai asayişin mühafizəsi də ciddi nəzarətdə saxlanılıb, qanunsuz keçirilməsinə cəhd göstərilən aksiyaların qarşısı alınıb, şəhər miqyasında keçirilən çoxsaylı kütləvi tədbirlərdə, yüksək səviyyəli ali qonaqların gəlişi ilə bağlı keçirilən "2016 Formula-1" kimi beynəlxalq tədbirlərdə ictimai asayişin mühafizəsi nümunəvi təmin olunub.

Bakı Şəhər BPİ-nin rəisi M.Seyidov əməliyyat müşavirəsinə yekun vuraraq, Bakı polisinin 2016-cı ilin 1-ci yarısındakı xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib, nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində öz tapşırıq və tövsiyələrini verib. Baş İdarənin rəisi dövlət rəhbərliyinin paytaxtda əmin-amanlıq, təhlükəsizlik məsələlərinə xüsusi əhəmiyyət verdiyini və bu sahədə qarşıda duran vəzifələri müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

M.Seyidov daxili işlər nazirini və ölkə rəhbərliyini əmin edib ki, Bakı polisi bundan sonra da paytaxtda cinayətkarlığa qarşı mübarizəni, ictimai asayişin təmini istiqamətində xidməti fəaliyyətini əzmlə davam etdirəcək, verilən göstərişləri, əmrləri layiqincə yerinə yetirəcək, paytaxtda qanunçuluğun və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanacaq.

# Şəhid qızına qarşı zorakılıq araşdırılmamış qalıb

## Vəkil baş prokurora müraciət ünvanladı

**Atası Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş Ukrayna əsilli Azərbaycan vətəndaşı Natalya Nerovnyanın şikayəti araşdırılmamış qalıb. N.Nerovnya "Ballı market" şəbəkəsinin rəhbəri Elman Əsədovdan şikayətçidir.**



Bu haqda musavat.com-da "Xanım işçisindən "Ballı market"in rəhbərinə şok ittiham: "Məni çılpaq şəkillərimi çəkməklə hədələyib..." http://musavat.com/news/son-xeber/xanim-ishchisinden-balli-market-in-rehberine-shok-ittiham-meni-chilpaq-shekillerimi-chekmekle-hedeleyib_362153.html sərlövhəli yazı dərc etmişdik.

N.Nerovnya bildirmişdi ki, E.Əsədovun intim təkliflərini rədd etdiyinə görə onun maşını əlindən alınıb, maşından özünə və qonşusuna məxsus qızıllar götürülüb. Özünü isə gecə yarısına qədər işdə saxlayaraq lüt soyundurub videoya çəkmək hədəsi ilə guya marketdən 30 min manat mənimsədiyi haqda "ifadə" tələb ediblər. E.Əsədovun 2 qadın qohumu N.Nerovnyanın paltarlarına əl atıb onu soyundurmağa cəhd etdikdən sonra o, qarşı tərəfin ondan tələb etdiyi ifadəni - marketdən guya 30 min manat mənimsəməsi haqda yalanları video qarşısında deməklə yaxasını zorakıların əlindən qurtara bilib. Maşını əlindən alınmış xanım gecəyarısı zorakılığa məruz qaldığı yerdən dərhal Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsinə üz tutub. Burada N.Nerovnyanın şikayəti üzrə araşdırmalar başlayıb və sonradan prokurorluq orqanına təhvil verilib.

**N.Nerovnyanın vəkili Ceyhun Yusifov deyir ki, olayın baş verdiyi gündən bu günə qədər iş üzrə obyektiv araşdırma aparılmayıb:** "Natalya Nerovnya üzləşdiyi zorakılıqla bağlı polisə müraciət edəndən sonra polis əməkdaşları marketə gediblər və zorakılığın baş verdiyi ərazidə olan nəzarət kameralarının yaddaşını götürmək istəyiblər. Lakin onlara həmin vaxt demişdilər ki, kameralara nəzarət edən mütəxəssis yoxdur, gəlsin, kameraların yaddaşına baxarsız. İş prokurorluğa göndəriləndən sonra yenidən həmin nəzarət kameralarının yaddaşına baxılması məsələsi qalxdı. İşi Suraxanı rayon prokurorunun köməkçisi Vaqif Hüseynov araşdırır. O dedi ki, videonu bizə verməyəcəklər, çoxdan silib atıblar.

Bizim şikayətlərimizdən sonra Suraxanı prokuroru Vaqif Hüseynovu danladı, həmin videonu götürməsini tapşırdı. Sonradan V.Hüseynov dedi ki, guya ora tək gedib, videokameralar xarab imiş".

**Vəkil deyir ki, belə yanaşma ilə iş üçün əhəmiyyətli olan əsas sübutlardan biri yoxa çıxarılıb:** "Həmin videoları özləri bilə-bilə siliblər. Natalya Nerovnya "Ballı market" şəbəkəsinin rəhbəri Elman Əsədovun zorakılığına məruz qalan zaman maşının açarları da əlindən alınmışdı. Polislə maşının saxlandığı əraziyə gedəndə maşın orada olsa da, açarları yox idi. V.Hüseynov 1 dəfə ora getdi və maşının açarlarını tapıb gətirdi. Deyir ki, guya açarlar maşının yanında yerə atılıbmış. Polis orada bir neçə dəfə olub və açarlar maşının yanında olmayıb. V.Hüseynov açarı oradan necə tapıb, bilinmir. Bundan başqa, V.Hüseynov açarı - istintaq üçün əhəmiyyətli olan sübutu xüsusi qablaşdırmaya yerləşdirmədən götürüb qoyub cibinə. Açarın üzərindəki əl izlərinin götürülməsini isə V.Hüseynov "unudub". Bununla da iş üçün əhəmiyyət kəsb edən 2-cü sübutu da aradan çıxarıb. Dəfələrlə vəsatətlə çıxış etmişik ki, maşında ekspertiza keçirilsin, əl izləri götürülsün. Bunu da etmirlər. Bu hərəkətlər şikayətimizin rədd edilməsi üçün edilir".

Vəkil bildirib ki, baş prokuror Zakir Qaralova müraciət ünvanlayaraq N.Nerovnyanın üzləşdiyi qanunsuzluqların araşdırılmasını öz nəzarətinə götürməsini xahiş ediblər.

**İddialarla bağlı qarşı tərəfi də dinləməyə, mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# 15 iyul olayı Qarabağ sülh prosesini yavaşıdıb - səbəb

## Ekspertlər yeni durumu şərh edir; **rusiyalı tanınmış politoloq:** "Türkiyədə reallaşmayan çevriliş cəhdindən sonra tarixi bir eranın astanasındayıq..."



**Türkiyədə baş vermiş uğursuz hərbi çevriliş hadisəsi bir sıra regional proseslərlə yanaşı Qarabağ məsələsinə də təsirsiz ötüşmədi, Dağlıq Qarabağ problemi nisbətən arxa plana keçmiş oldu. Yəqin ki, müəyyən müddət belə də olacaq. ATƏT-in Minsk Qrupu həmsədrlərinin iyulun 18-nə Ankaraya nəzərdə tutulan mühüm səfərinin təxirə salınması bunun ilkin təzahürlərindən sayıla bilər.**




Bu barədə danışan Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik "hazırda növbəti görüşün vaxtı üzərində işlədiklərini" bildirib. Halbuki aprel döyüşlərindən sonra Qarabağla bağlı başlanmış yeni diplomatik fəallıq, xüsusən də Rusiyanın təşəbbüskarlığı rəsmi Ankaranı da prosesə cəlb eləməyə yaxın idi. Ancaq həmsədr ölkə Fransada baş vermiş növbəti terror aktı, ardınca qardaş ölkədə yaşanan dövlət çevrilişi cəhdindən sonra proses indi ləngimiş kimi görünür. Tezliklə prezidentlərin növbəti görüşünü hazırlayacaqlarını bəyan edən həmsədrlərdən indi səs çıxmır.

Üstəgəl, işğalçı Ermənistanın özündə son günlər daxili ictimai-siyasi durum xeyli gərginləşib və bunun da kökündə duran aparıcı səbəblərdən biri kimi Qarabağ məsələsində rəsmi İrəvanın ata biləcəyi konstruktiv addım göstərilir. O üzdən Ermənistanda Sərkisyan rejiminin də qat-qat radikal olan qüvvələr mövcud hakimiyyətlə az qala ultimatum dilində danışmağa, silahlı qiyamla hədələməyə başlayıblar.

***

Yaranmış vəziyyətdə Qarabağa dair böyük sülh sazişinə aparan yol, göstərilən təşəbbüslərin nəticələri təbii ki, xeyli dumanlı görünür. Demək, müharibə ehtimalı təzədən aktuallıq qazanır. Bəs regionda, qonşu ölkələrdə baş verən kritik olaylar fonunda Dağlıq Qarabağ konflikti zonasında yeni və daha geniş miqyaslı hərbi qarşıdurma mümkündürmü və belə eskalasiya zamanı Türkiyənin Azərbaycana dəstək imkanları 15 iyuldan sonra hansı istiqamətə dəyişib?

Rusiya İslam Komitəsinin sədri, Azərbaycan əsilli tanınmış siyasi analitik Heydər Camalın bu xüsusda fikri maraq doğurur. Analitik hesab edir ki, 15 iyul qiyamın günahkarı qismində ABŞ müəyyən edildiyindən, prezident Rəcəb Tayyib Ərdoğanın Rusiya, müvafiq olaraq da erməni istiqamətində əl-qolunu bağlanmış olacaq. **"Bu üzdən yaxın zamanlarda Türkiyə Bakıya sonuncunun vərdiş elədiyi ənənəvi dəstəyi tam verə bilməyəcək. Əlbəttə ki, Türkiyə heç vaxt öz müttəfiqini atmayacaq, hərgah, Azərbaycanın blogger ictimaiyyətinin bir qisminin şərhləri yəqin ki, qardaş ölkənin hissələrinə toxunub. Amma burada başqa bir təhlükə var: məsələ ondadır ki, Ankaranın şimal istiqamətində əl-qolunun bağlı, Azərbaycanın isə nisbi tənhalığına əmin olan Ermənistan təxribatlarına əl ata bilər. Azərbaycan xalqı, onun silahlı qüvvələri buna hazır olmalıdır"**, - deyə politoloq xəbərdarlıq edib.

Məsələ də ondadır ki, son vaxtla işğalçı Ermənistanda da ultra-radikal millətçi qüvvələr tərəfindən müharibə çağırışlar artıb. Aprel hərbi zərbəsindən yaxşı dərs götürməyən həmin qüvvələrə, deyəsən, bu dəfə daha sərt qulaqburması vermək lazım gələcək - əlbəttə ki, Azərbaycan məqbul bildiyi əlverişli məqamda. Bu məqam isə söz yox ki, həmişəki kimi, ən əvvəl Rusiya amilindən asılı olacaq.

***

Bu xüsusda Türkiyədəki hərbi qiyam faktı yeni və maraqlı bir situasiya yaradıb. Bir sıra ekspertlərə görə, hərbi çevrilişdə "Amerika izi"nin üzə çıxması Ankara və Moskvanın daha da yaxınlaşması, hətta yeni hərbi müttəfiqlik yaratması üçün unikal imkan açıb və bu imkan Bakının da xeyrinə işləyə bilər. Rusiyalı tanınmış tarixçi-analitik, beynəlxalq meydançalarda və tribunalarda daima Azərbaycanın haqlı mövqeyini müdafiə edən və buna görə vaxtaşırı erməni təhdidləri ilə üzləşən Oleq Kuznetsov bu cür düşünənlər sırasındadır.

**"15 iyul çevriliş cəhdi ilə bağlı Ərdoğanın zəng elədiyi ilk dünya lideri Rusiya prezidenti Vladimir Putin oldu. Bu jest olduqca əlamətdar olmaqla özlüyündə çox şey deyir. Yeri gəlmişkən, Türkiyədə baş verənləri ilk olaraq dövlət çevrilişinə cəhd adlandıranlardan biri Azərbaycan prezidenti İlham Əliyev idi. Belə görünür, Türkiyə üçün indi əsas oriyentir məhz Rusiya olacaq, ABŞ yox. Şəxsən mən buna çox sevinərdim. Mən artıq çoxdan - 2013-cü ildən Qara dəniz-Qafqaz regionunda Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağının yaradılması ideyasını təbliğ edirəm. Və bunu həm şifahi, həm də yazılı şəkildə elmi konfranslarda və elmi-publisistik məqalələrdə qeyd edirəm"**, - deyə Oleq Kuznetsov vesti.az-dakı müəllif məqaləsində bildirir.

Ekspertə görə, belə bir hərbi-siyasi blokun yaradılması zərurəti indi artıq onun bütün potensial iştirakçıları, ilk növbədə də Türkiyə üçün daha aydın görünür. **"Mənim əvvəllər öz mahiyyətinə görə ağılsız və mümkünsüz görünən, haqqında "belə bir şey mümkün deyil, çünki heç vaxt mümkün deyil" deyilən tezisim getdikcə daha da həyat qabiliyyətli olur"** - analitik sonda qeyd edib.

Onun fikrincə, Türkiyədə baş tutmamış dövlət çevrilişi cəhdindən sonra hamı tarixi bir eranın astanasındadır. **"Hər halda, ən azından Qara dəniz-Qafqaz regionu üçün"** - analitik əlavə edib.

***

Rusiya-Türkiyə münasibətlərinin xarakteri əslində zaman-zaman bölgədəki vəziyyətin inkişaf vektorlarını müəyyən edib. Bu münasibətlər söz yox ki, Qarabağ məsələsində də mühüm təsirə malikdir. Hərçənd Qərb, məxsusən də ABŞ Ankara-Moskva əlaqələrinə həmişə soyuq yanaşıb, bu münasibətlərin strateji xarakter almasını əngəlləməyə səy edib. Yenə də belə olacağı istisna deyil. Ən azı ona görə ki, Qərbin. Birləşmiş Ştatların da Cənubi Qafqazda, Qarabağ məsələsindən dolayı öz maraqları var.

Deməli, konkret olaraq Dağlıq Qarabağ məsələsində hansısa sıçrayışlı irəliləyiş yenə də kiminsə, hansısa qüvvənin əli ilə tormozlana bilər. Odur ki, əsas sual indi budur ki, Türkiyədəki 15 iyul hərbi çevriliş cəhdindən sonra iki həmsədr dövlət olaraq, Rusiya ilə ABŞ arasında Qarabağ problemi nə dərəcədə ortaq mövzu ola biləcək?



# Separatçı rejimin başçısı sərsəmlədi

**Dağlıq Qarabağda hökm sürən separatçı-işğalçı rejimin rəhbəri, "Kremlin tulası" ləqəbi daşıyan Bako Saakyan Rusiyanın lenta.ru saytına müsahibə verib. Müsahibədən də görünür ki, Saakyan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı gedən danışıqlar barədə səthi bəhs etməklə kifayətlənib.**

Onun müsahibəsi ermənilərin regionda hərbi əməliyyatların başlanmasından necə çəkindiklərini aydın göstərir. Saakyanın dəfələrlə regionda sülhün və təhlükəsizliyin təmin olunmasından dəm vuraraq, bu əməliyyatların dünya miqyasında fəlakətə çevriləcəyi barədə haray-qışqırıq salması da bunun nişanəsidir.

Bako Saakyan 4 günlük aprel müharibəsini dayandıran faktorun "DQR" "ordusu" *(əslində Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri-red.)* və beynəlxalq birliyin məsələnin sülh yolu həll olunması ilə bağlı qəti mövqeyi olduğunu söyləyib. Onun iddiasına görə, əgər Qarabağda müharibə başlasa, bu, Cənubi Qafqazda və hətta bütün dünyada digər münaqişələr üçün katalizator rolunu oynaya bilər.

Saakyanın Qarabağda hökm sürən və birbaşa Ermənistanın hərbi dairələrinin nəzarət etdiyi kriminal-quldur rejimin demokratik dünyada tanınmasının zaman məsələsi olduğunu söyləməsi də ayrıca rişxənd mövzusudur.

Separatçı erməni lider münaqişənin həll olunması üçün Minsk Qrupunun regiondakı fəaliyyətinin olduqca mühüm olduğunu söyləyib və separatçı rejimin danışıqlarda tam hüquqlu tərəf kimi iştirak etmək istəklərini təkrarlayıb. "Kreml tulası"nın sərsəmləməsinə görə, rəsmi Bakı bununla bağlı mövqeyini və hətta dövlət quruculuğu fəlsəfəsini dəyişməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# Öldürülən generalın köməkçisinin məhkəməsi başlayır

## Rail Rzayevin yaxınlarının neqativ münasibət göstərdikləri köməkçini hansı əsasla azad ediblər?


Rail Rzayev

**Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qətlə yetirilən komandanı, general-leytenant Rail Rzayevin köməkçisi Aydın Rəfiyevin məhkəməsinin vaxtı məlum olub. A.Rəfiyevin işi üzrə proses iyunun 25-də Bakı Apelyasiya Məhkəməsində hakim Vüqar Məmmədovun sədrliyi ilə keçiriləcək.**

A.Rəfiyev bir müddət əvvəl Qaradağ Rayon Məhkəməsinə müraciət edərək cəzasının çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilməsini xahiş edib. Məhkəmə onun xahişini nəzərə alaraq vaxtından əvvəl azadlığa buraxıb. Qərardan narazı qalan Bakı Şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Rauf Əsgərov apelyasiya protesti verib. İttihama əsasən, R.Rzayevin yavəri Anar Haşımov, köməkçisi Aydın Rəfiyev və onun oğlu Anar Rəfiyev 2009-cu il fevralın 11-də, R.Rzayev qətlə yetiriləndən dərhal sonra onun iş otağına qanunsuz müdaxilə edərək oradan külli miqdarda qızıl-zinət əşyaları, xeyli sayda dərman preparatı, DVD-lər və generala məxsus seyfdən 200 min avro məbləğində pul oğurlayıblar.

Aydın Rəfiyev Cinayət Məcəlləsinin 177.3.2-ci (oğurluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.2.1-ci (mənimsəmə və ya israf etmə - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən edildikdə), 179.2.2-ci (mənimsəmə və ya israf etmə təkrar törədildikdə), 179.2.3-cü (mənimsəmə və ya israf etmə-şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 299.3-cü (ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə verməyə və yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma, bu əməllər sağlamlığa zərər vurmaqla, zor tətbiq etməklə törədildikdə), 311.3.1-ci (rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 341.2.1-ci (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə - bu əməllər bir qrup şəxs tərəfindən törədildikdə), 341.2.3-cü (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə - bu əməllər ağır nəticələrə səbəb olduqda), A.Haşımov 177.3.2, 341.2.1, 341.2.3-cü, Anar Rəfiyev isə 179.2.1, 179.2.2, 179.3.2 və 299.2-ci (ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə verməyə və yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma - şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa məcbur etmə, şantajla və ya onların yaxın qohumlarını öldürmək, sağlamlığa zərər vurmaq və ya əmlakını məhv etmək hədəsi ilə törədildikdə) maddələri ilə ittiham olunublar.

2010-cu ilin noyabrında Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin qərarı ilə Aydın Rəfiyev 9, Anar Rəfiyev 7 il 6 ay, A.Həşimov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər.

Bir müddət əvvəl- 8 fevral 2016-cı il tarixli sayımızdakı “Qətlə yetirilən generalın qızından şok açıqlamalar - sirlər açılır” sərlövhəli müsahibədə general R.Rzayevin qızı Rahilə Rzayeva A.Rəfiyevlə bağlı fikirlərini açıqlamışdı.

**Həmin müsahibədən sitat: “ Aydın Rəfiyev dünyanın altını da, üstünü də bilən adamdır. Adama pislik edəndə, onun yaxını ilə əlbir olub pislik edirlər”.**

Qeyd edək ki, R.Rzayev 2009-cu il fevralın 11-də evinin yaxınlığında odlu silahdan açılan atəşlə qətlə yetirilib. Baş vermiş hadisə ilə bağlı Respublika Hərbi Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120.2.5-ci (tamah məqsədilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və toxumalarından istifadə etmə məqsədilə adam öldürmə) və 228-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddələri ilə cinayət işi başlanıb. Generalın qətlindən 7 il keçməsinə baxmayaraq, cinayətin üstünün açılması mümkün olmayıb.

❑ E.MƏMMƏDƏLİYEV

# “Cahangir Hacıyev dözülməz şəraitdə saxlanılır”

## Vəkil: “Müvəkkilim deyir ki, istidən bişirik“

**“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və digər 7 şəxsin işi üzrə ittiham aktı Baş Prokurorluq tərəfindən baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**



C.Hacıyevin vəkili Aqil Layıcov “Yeni Müsavat”a bildirib ki, cinayət işinin məhkəməyə göndərilməsi haqda onlara rəsmi bildiriş verilməyib. Vəkil ittihamla razı olmadıqlarını da diqqətə çatdırıb: “İttihamı qəbul etmək üçün hüquqi əsas olmalıdır. Hüquqi əsas yoxdur. Çünki ittiham Mərkəzi Bankın təlimatlarına əsaslanır. Həmin təlimatlar cinayət məsuliyyəti müəyyən etmək üçün əsas ola bilməz. Mərkəzi Bankın kredit verilməsi qaydaları var. Həmin qaydalar normativ hüquqi akt da deyil. Belə aktlar öz-özlüyündə cinayət məsuliyyəti və inzibati məsuliyyət müəyyən edə bilməz. O, sadəcə, mülki məsuliyyətdir və şirkətdaxili administrativ tədbirlərin görülməsi üçün əsas yaradır. Yoxsa belə aktlar öz-özlüyündə cinayət məsuliyyətinə səbəb ola bilməz, bu birmənalı şəkildə belədir. Cinayət Məcəlləsində Mərkəzi Bankın təlimatının pozulması adlı maddə yoxdur. Odur ki, ittihamın əsassız olması da ortadadır”.

**Vəkil C.Hacıyevdən alınan 184 milyonluq səhmin taleyi ilə bağlı suala belə cavab verib:** “Cahangir Hacıyev ittihamı qəbul etmir. O, ilk gündən bildirir ki, baş verənlər kimlərinsə şəxsi mülahizələrinə əsaslanan fikirlərdən qaynaqlanır. Bununla belə, o, özünə və ailəsinə məxsus 184 milyonluq səhmi təhvil verərək ehtimal olunan zərərlərin ödənilməsinə yönəlməsini istəyib. İstəyib ki, bu məsələ həll edilsin. Həmin pulu ehtimal olunan zərərlərə də yönəltməyiblər. Səhmlərin harada, kimdə olduğunu bilmirik”.

**Vəkil ehtimal olunan zərərlər haqda məlumatsız olduğunu bildirib. Deyib ki, C.Hacıyev hazırda həddən artıq dözülməz, son dərəcə dəhşətli isti kamerada saxlanılır:** “Biz Ədliyyə Nazirliyinə müraciət ünvanlamışıq ki, ona kameraya öz hesabına sərinkeş qoyulmasına icazə verilsin. Hələ ki cavab yoxdur. Bakı İstintaq Təcridxanası səhra kimi yerdə yerləşir. Orada yaxınlıqda kanalizasiya gölməçəsi də var. Zabrat qəsəbəsinin kanalizasiya suları da ora axıdılır. İsti bir yandan, üfunət iyi də ərşə qalxır. Orada havasızlıqdır. Təsəvvür edin ki, kameranı gün vurur, divarları, dəmir barmaqlıqlar elə qızır ki, səhərə qədər də soyumur. Kameralardan od-alov çıxır, 45 dərəcə isti olur. Müvəkkilim deyir ki, istidən bişirik. Belə dözülməz isti infarkt riskini 1-ə 10 artırır”.

**Vəkil deyir ki, BİT-də saxlanan digər dustaqlara kameralarında öz hesablarına ventilasiya sistemi quraşdırmağa imkan verilib:** “Belə bir halda Cahangir Hacıyevə eyni şəraitin yaradılmamasının səbəbini başa düşə bilmirik”.

**A.Layıcov BİT-də quraşdırılan mərkəzi havalandırma sisteminin havanı soyutmadığını da diqqətə çatdırdı:** “Həbsdə saxlanan şəxslərin saxlama qaydalarına görə qanunla qadağan olunmayan əşyaları kameralara keçirə bilərlər. Biz də qanunla qadağan olunmayan kondisioner, sərinkeşin öz hesabımıza kameraya qoyulmasını xahiş etmişik. Hələ ki cavab verilməyib”.

C.Hacıyev və digərləri Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə təqsirləndirilirlər.

❑ E.MƏMMƏDƏLİYEV

# Akif Çovdarovu məhkəmə zalından azad edəcəklər?

## Onun işi üzrə istintaqın ayrıca icraata verilməsi şübhələrə yol açır

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbs edilmiş sabiq rəisi, general-mayor Akif Çovdarovun və digər 3 MTN əməkdaşının barəsindəki ibtidai istintaq yekunlaşıb. A.Çovdarovla yanaşı, MTN polkovniki Səlim Məmmədov, mayor Akif Əliyev və şöbə rəisi Orxan Osmanovun işi yaxın günlərdə məhkəməyə göndəriləcək.**



Redaksiyamıza daxil olan məlumata görə, A.Çovdarovun işi üzrə istintaqın ayrıca icraata verilməsi onun “xəstəliyi ilə əlaqədar azad edilməsi” planının tərkib hissəsidir. MTN-in odioz generalını məhkəmə zalından azad etmək planı var.

Yada salaq ki, 2010-cu ildə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə (hazırda Bakı Ağır Cinayətlər Məhkəməsi -E.M.) “ekstazi işi” araşdırılırdı. Həmin iş üzrə təqsirləndirilən 14 nəfərin sırasında bir çox tanınmışların övladları ilə yanaşı bir müddət Bakı şəhər prokuroru olmuş Ədalət Mirsalamlının oğlu Mahir Mirsalamlı da vardı. Məhkəmə prosesinin ən qızğın çağında Mahir Mirsalamlı “xəstə”ləndi. Hakim Azər Orucov M.Mirsalamlının “ağır xəstəliyi ilə əlaqədar” prosesi bir neçə dəfə təxirə saldı və sonda prosesin M.Mirsalmalı olmadan davam etdirilməsini qərarlaşdırdı. Beləliklə, məhkəmə yekunlaşdı və hökmlə digər şəxslər müxtəlif müddətə cəzalara məhkum edilsələr də, hökmdə M.Mirsalamlının barəsində prosesin və müvafiq qərarın o, sağalandan sonra çıxarılacağı qeyd edildi. Həmin müddətdən 6 il ötüb və M.Mirsalamlı hələ ki “sağalmayıb”, odur ki, barəsində hökm də yoxdur. Yeri gəlmişkən, M.Mirsalamlının da olduğu 14 nəfərlik dəstəni həmin dövrdə Milli Təhlükəsizlik Nazirliyi tutmuşdu.

Belə görünür ki, 6 il əvvəl sınaqdan uğurla çıxmış M.Mirsalamlının işi A.Çovdarov üçün də keçərlidir. Onun 10 və ya 20 maddə ilə ittiham olunması heç nəyi dəyişmir. A.Çovdarovu nələrinsə müqabilində azad etmək istəyirlər. Bu istəyin gerçəkləşməsi istiqamətində artıq real addımlar atılmaqdadır. Maraqlıdır ki, onun adı “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətl işində təşkilatçı kimi keçsə də, bu haqda mətbuatda kifayət qədər məlumatlar olsa da, ittihamda bu epizod yoxdur.

Qeyd edək ki, A.Çovdarov ötən il noyabrın 15-də həbs edilib. O, Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 309.1 (vəzifə səlahiyyətlərini aşma), 311-ci (rüşvət alma) və 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə) maddələri ilə təqsirli bilinir.

❑ E.HÜSEYNOV



# Bakını "yükdən" necə xilas etməli...

## "Paytaxtın digər şəhərə köçürülməsi regional inkişafa dəstək verər, Bakının "yükü"nün azalmasına gətirib çıxarar"

**Yay mövsümü olduğu üçün paytaxt Bakıda əhalinin sayının, tıxacların azalmasının şahidi oluruq. Görünən budur ki, Bakı küçələri, yolları boşalıb. Təkcə yayda deyil, ümumiyyətlə, Bakının "yükü" nə qədər olmalıdır?**

Ötən il Dövlət Statistika Komitəsi məlumat yayaraq bildirdi ki, 2015-ci ilin 1 iyuluna olan vəziyyətə görə Bakı şəhərinin əhalisinin sayı 2.214100 nəfər olub. Paytaxtda əhalinin sıxlığı bir kvadrat kilometrə 1034 nəfər təşkil edib. Bu da kifayət qədər böyük rəqəmdir. Xüsusən də paytaxtın mərkəzi hissəsində əhalinin sıxlığına daha çox rast gəlinir. Bunun da öz səbəbləri var.

Hələ 90-cı illərdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, yerlərdə kəskin iqtisadi və sosial tənəzzülün başlaması, işsizliyin kəskin artması əhalinin mərkəzə axın etməsinə səbəb olub. Hər il bölgələrdən paytaxta axın artan surətdə davam edir. Ölkənin maliyyə, administrativ qurumlarının, əyləncə mərkəzlərinin, ali təhsil ocaqlarının, hökumət və parlamentin burada yerləşməsi problemi daha da artırmış olur. Məlumdur ki, əksər universitet və kolleclər paytaxtda yerləşir. Təkcə Bakı Dövlət Universitetində 18 mindən çox tələbə təhsil alır.

Beləliklə də Bakı getdikcə "yüklənir", "yükləndikcə" də problemlər artır, sosial infrastrukturlar tələblərə cavab vermir, şəhəri cənginə alan tıxaclar yaranır və sairə. Bu problemlərdən qismən də olsa azad olmaq üçün bir neçə il bundan əvvəl müəyyən ideyalar səslənmişdi. Onlardan biri də bu idi ki, hökumət qurumları, eləcə də ali təhsil ocaqları paytaxtdan alınaraq başqa şəhərlərdə yerləşdirilsin. Beləcə Bakının da yükü xeyli azalmış olar. Mərkəzlərin yerləşdirilməsi nəzərdə tutulan əsas şəhərlərdən biri kimi Gəncə göstərilirdi. Qeyd edilirdi ki, ölkənin ikinci böyük şəhəri olan Gəncənin paytaxt olması daha təqdirəlayiqdir, çünki bu qədim şəhər uzun müddət ölkənin sənaye mərkəzi olub və ən əsası 1918-ci ildə Xalq Cümhuriyyətinin paytaxtı olduğu üçün bu məsələdə müəyyən təcrübəsi var. Həmçinin Göyçay-İsmayıllı ərazisində də paytaxt şəhəri salınması ideyası vardı.

Paytaxtın başqa şəhərə köçürülməsi artıq dünya təcrübəsində var. Məsələn, 1997-ci ildə postsovet ölkələri arasında ilk dəfə Qazaxıstanda paytaxt Almatıdan Astanaya köçürülüb. Paytaxtın Almatıdan Astanaya daşınması ilə Qazaxıstanın sənaye cəhətdən inkişaf etmiş şimalı və aqrar cənubu arasında yaranmış disbalans tədricən aradan qaldırıldı. Qazaxıstanda işsiz əhalinin paytaxta axınının qarşısı alındı. Bundan başqa, ölkənin regionlarında yerli əhaliyə nisbətən üstünlük təşkil edən rus mənşəli əhalinin qazaxlara nisbəti də tədricən azalmağa başladı.

Qonşu Gürcüstanın isə parlamenti başqa şəhərə köçürmək təcrübəsi var. Azərbaycan parlamenti ilə bir vaxtda, 1918-ci ildə yaranan Gürcüstan parlamenti 150 üzvdən ibarətdir. 2013-cü ilə qədər paytaxt Tiflisdə yerləşən Gürcüstan Parlamentinin binası artıq 3 ildir ki, paytaxtdan 230 km uzağa - Kutaisi şəhərinə köçürülüb.

Bəs paytaxt Bakı üçün də bu cür təcrübələrin həyata keçirilməsi zəruridirmi? Paytaxtın yükünün azalması üçün hökumət nə etməlidir?

**Deputat Fazil Mustafa məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb. Deputat qeyd edib ki, indiki vəziyyətdə köçürülmə problemdən çıxış yolu deyil:** "Kənarda və yaxud Azərbaycanın orta zonalarının birində, Xəzər dənizinə yaxın olan bir ərazidə paytaxtın salınması məsələsini həll etmək olar. Qazaxlar bu məsələni həll etdilər və çox şeyə qadirdirlər. Almatı yenə də Qazaxıstanın gözəl şəhəridir, amma bütün dövlət orqanları Astanaya köçdü. Oradakı coğrafi və tarixi şəraitə görə bunu etməli idilər, siyasi deyil, iqtisadi səbəbdən bunu etmək vacib idi. Bu baxımdan ki, infrastruktur olaraq dövlətin idarə etməsinə aid olan bütün müəssisələr, idarələrin hamısı ora cəmlənir.

Ali təhsil ocaqlarını daşımağa ehtiyac yoxdur, çünki Bakı böyük şəhərdir və insanların böyük əksəriyyəti böyük şəhərlərdə oxumağa üstünlük verir. İndiki şəraitdə köçürülmə üçün böyük bir vəsait lazımdır. Yaxşı olardı ki, universitetlərin müəyyən dərəcədə muxtariyyətinin genişlənməsi, onların şəhərdən kənarda ayrılmış ərazilərdə yerləşməsi olardı. Məsələn, Qafqaz Universitetinin binası şəhərdən kənardadır, heç nəyə mane olmur.

İndiki vəziyyətdə çıxış yolu kimi köçürülmə olduğunu düşünmürəm. Hər halda, müəyyən dərəcədə yol infrastrukturunun və ictimai nəqliyyat infrastrukturunun gücləndirilməsinə ehtiyac var. Eyni zamanda da avtomobil dayanacaqlarının təkmilləşməsinə, çoxalmasına, ucuz edilməsinə ehtiyac var".

**İqtisadçı ekspert Vüqar Bayramlı da bildirdi ki, müəyyən müəssisələrin paytaxtdan kənara köçürülməsi yerlərdə müxtəlif sektorların inkişafına kömək edə bilər:** "Bakının xüsusən də tıxac problemlərinin azaldılması üçün universitetlərin, eləcə də dövlət qurumlarının paytaxtdan kənara köçürülməsi yenə də aktualdır. Nəzərə alsaq ki, xüsusən ABŞ kimi ölkələrdə, iri şəhərlərdə adətən aparıcı universitetlər demək olar ki, mərkəzdə yerləşmir. Onluğa daxil olan ən yaxşı universitetlərə baxsaq görərik ki, böyük əksəriyyəti kiçik şəhərlərdə yerləşir. Ona görə ki, iri şəhərlərdə tıxacın, yüklənmənin qarşısını alır, paytaxtdan və ya iri şəhərlərdən kənar olan yerlərin inkişafına zəmin yaradır.

Nəzərə alsaq ki, bir universitetin paytaxtdan kənara köçürülməsi, orta hesabla 15-20 min əhalinin kənara getməsi deməkdir. Eyni zamanda onların Bakıda kirayəyə və digər yerlərə çəkdiyi xərcləri paytaxtdan kənara sərf etməsi kənarda olan sektorların inkişafına kömək edə bilər. Bu baxımdan, universitetlərin mərhələli şəkildə paytaxtdan kənara köçürülməsi məqsədəuyğundur. Yalniz universitetlərin deyil, bir çox dövlət qurumlarının da paytaxtdan kənarda fəaliyyət göstərməsi daha məqsədlidir.

Düşünmürəm ki, bu məsələnin mənfi tərəfləri var. Çünki bu, regional inkişafa dəstək verir, Bakının yükünün azalmasına gətirib çıxarır və bir növ sərmayənin paytaxtdan regionlara köçməsinə səbəb olur. Burda yalnız kadr problemi ola bilər, xüsusən də aparıcı universitetlərdə çalışan professorların bir qismi tutaq ki, məhz rayonlarda yaşayıb dərs deməkdə maraqlı olmasın. Lakin bunu da stimullaşdırmaq olar".

❑ **Xalidə GƏRAY**

# Kənd təsərrüfatının inkişafı mümkün olacaqmı?

## Ekspertlər şərtləri və proqnozlarını sadalayırlar; aqrar ölkəyə çevrilmək vacibdir

**Azərbaycanda qeyri-neft sektoru olaraq kənd təsərrüfatının inkişafı istiqamətində hansı addımların atıldığı diqqət çəkir. Neft dövrünün başa çatdığı anlaşılsa da, digər istiqamətlərdə çevik addımların atılması müşahidə edilmir. Əksər ekspertlər bildirirlər ki, postneft dövrü olaraq Azərbaycan qeyri-neft sektorunu, yəni sənaye və kənd təsərrüfatını inkişaf etdirməyi qarşısına məqsəd qoyub.**



Ekspertlərin fikrincə, Azərbaycanda kənd təsərrüfatının inkişafı və ölkənin aqrar ölkəyə çevrilməsi üçün potensial var: Ancaq bir çox islahatlar aparılmalıdır. Bu sahədə köklü dəyişikliklər etməyin vacibliyi vurğulanır.

**Ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, cari ilin birinci yarısında kənd təsərrüfatı istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artıb: "Əslində bu artımın ən azı iki dəfə yüksək olacağı gözlənilirdi. Aramsız yağışlar nəticəsində yaranmış təbii şəraitdə bəzi məhsulların yığımına gec başlanması səbəbindən hesabat dövrünün statistik rəqəmləri belə aşağı ola bildi. İlin sonuna aqrar sektorda ümumi istehsalın 6 faizdən çox artımı gözlənilir. Son bir neçə il ərzində aqrar sektora fermerlərin fəaliyyətini daha səmərəli təşkil etmək məqsədilə dövlət öz dəstəyini kifayət qədər artırıb. Hazırda fermerlər ancaq torpaq vergisi ödəyirlər və başqa qalan bütün vergilərdən azaddırlar. Elə bunun nəticəsidir ki, hesabat dövründə keçən illə müqayisədə bir çox məhsulların istehsalı və ixracı üzrə əsaslı irəliləyişlər müşahidə olunub. Belə ki, cari ilin 6 ayı ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının ixracı ümumilikdə 27,5 faiz arta bilmişdi. Bu çox yaxşı nəticədir. Bu artımla yanaşı eyni zamanda ixrac olunan məhsulların çeşidi kifayət qədər böyümüş və ixracın coğrafiyası genişlənmişdi ki, bunu da kifayət qədər müsbət ənənə hesab etmək olar".

**Ekspertin sözlərinə görə, strateji məhsulların yetişdirilməsi sahəsində bu ilin birinci yarısında əldə olunan nəticələr artıq dəfə ilə ölçülə biləcək səviyyədədir:** "Gəlin bu sahədə əldə olunan və gözlənilən nəticələrə nəzər salaq. Əgər keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıbsa, bu il 52 min hektarda pambıq əkini təmin edilib ki, bu hesaba da ilin sonuna 100 min ton məhsul gözlənilir. Gələn il pambıq əkin sahələrinin 2,3 dəfə artırılması, onun istehsalının isə 250 min tona çatdırılması nəzərdə tutulur. İpək istehsalının yeni infrastrukturunun yaradılması və baramaçılığın müasir tələblər səviyyəsində təşkil edilməsi nəticəsində keçən il istehsal olunmuş 232 kiloqrama qarşı cari ildə 70,7 ton, yəni 300 dəfə artıq yaş barama məhsulu istehsal edilib. Növbəti illərdə ölkədə baramaçılığın daha geniş inkişafı məqsədilə gələn il 1milyon 600 min tut tinginin əkilməsi nəzərdə tutulur ki, bu da hazırda mövcud olan tut ağaclarının sayından 4,5 dəfə çox deməkdir. Cari ilin 1 iyun tarixinə respublika üzrə 2,1 min hektar sahədə tütün əkilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 839 hektar və ya 40 faiz çoxdur. Bu siyahını artırmaq da olar. Göründüyü kimi, aqrar sektora dövlət dəstəyi öz nəticələrini artıq verməyə başlamışdı. Hesab edirəm ki, bu qaydada inkişafla aqrar sektor ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılmasında öz sözünü deyəcək".

Ekspertlərin sözlərinə görə, kənd təsərrüfatının inkişafı üçün fermerlərin ucuz və uzunmüddətli kreditlərə çıxış imkanları təmin olunmalıdır. Azərbaycanın sənaye ölkəsinə çevrilməsi iqtisadi-siyasi sistemin işləmə qaydalarından, mülkiyyət hüququnun qorunmasından, həm də azad məhkəmələrdən keçir. Gecikmədən islahatlar aparmaq lazımdır. Həmçinin qeyd edilir ki, iqtisadi vəziyyət torpaqdan istifadənin effektivliyinin artırılmasını diktə edir.

Yeri gəlmişkən, qısa müddət öncə dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam da imzalayıb. Ekspertlər bildirirlər ki, mövcud sərəncam Azərbaycanın kənd təsərrüfatı ölkəsinə çevrilməsinə kömək edə bilər. Bildirilir ki, iqtisadi baxımdan kənd təsərrüfatı ölkəsinə çevrilmək vacibdir.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# İsmayıllıda dəhşətli olay: oğlan sevdiyi qıza görə özünü yandırdı




**İsmayıllı rayonunda dəhşətli intihar hadisəsi baş verib. Azvision.az-ın məlumatına görə, rayon sakini 29 yaşlı Elnur Dəmirov özünü yandıraraq həyatına qəsd edib. Ağır yanıq xəsarətləri alan gənc Respublika Yanıq Mərkəzinə gətirilib. Vəziyyəti ağır olduğundan onun həyatını xilas etmək mümkün olmayıb.**

"Xəstənin vəziyyəti çox ağır idi. Onun həyatını xilas etmək üçün əlimizdən gələni etdik. Təəssüflər olsun ki, yardımlarımıza baxmayaraq, xəstə dünyasını dəyişdi" - deyə xəstəxanadan bildirilib.

Məlumata görə, Elnur Dəmirov sevdiyi qıza görə intihar edib. Sakinlərin sözlərinə görə, 29 yaşlı oğlan özünü sevdiyi qızın evinin qarşısında yandırıb: "Elnur həmin qızla ailə həyatı qurmaq istəyirdi. Amma qızın valideynləri buna razı deyildilər. Elnur sevdiyi qıza qovuşa bilmədiyi üçün bir neçə dəfə özünü öldürəcəyini demişdi. Heç kim buna inanmırdı. O, sonuncu dəfə sevdiyi qızgilə gedib, bu dəfə də razılıq ala bilməyib. Bundan qəzəblənən Elnur üstünə benzin tökərək özünü yandırıb".


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda qardaş bacısını bıçaqladı

**Bakıda qardaş bacısını bıçaqlayıb. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Bülbülə qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1980-ci il təvəllüdlü Ramin Əhmədov yaşadığı evdə qısqanclıq zəminində bacısı, 1991-ci il təvəllüdlü Ramiləyə bıçaqla çoxsaylı xəsarət yetirib.**

R.Əhmədov tutulub. Faktla bağlı araşdırma aparılır.

## Bu gün Bakıda 40, rayonlarda 42 dərəcəyədək isti olacaq



**Bakıda və Abşeron yarımadasında sabah hava şəraiti günəşli olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 23-27° isti, gündüz 34-38°, bəzi yerlərdə 40°-dək isti, Bakıda gecə 24-26° isti, gündüz 37-39° isti olacaq.

Azərbaycanın rayonlarında iyulun 21-də hava şəraitinin əsasən yağmursuz olacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-27° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 16-21° isti, gündüz 28-33° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 757 civə sütunundan 754 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 45-50 % təşkil edəcək. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 23-24°, Buzovna, Mərdəkan, Şüvəlanda 24-25°, Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji xəbərdarlığa görə, iyulun 21-də Bakıda və Abşeron yarımadasında anomal isti hava şəraiti fonunda gündüz zəif cənub-şərq küləklərinin üstünlüyü əksər əhali üçün əlverişsizdir. Uzun müddət qızmar günəş altında olmaq məsləhət deyil.


### Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**


## Polis çimərliklərdə reydlərə başladı

### Tədbirlər çimərlik mövsümü başa çatanadək davam etdiriləcək

**Polis çimərliklərdə reydlərə başlayıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, Xəzər dənizinin sahilboyu ərazilərindəki çimərliklərdə, əyləncə mərkəzlərində, digər kütləvi istirahət yerlərində əcnəbilərin və ölkə vətəndaşlarının təhlükəsizliklərini təmin etmək, sağlamlıqlarını qorumaq məqsədilə Bakı Şəhər Baş Polis İdarəsinin müvafiq qurumlarının əməkdaşlarından ibarət qruplar təşkil olunub və paytaxtın ümumilikdə 6 rayonunun inzibati ərazisindəki çimərliklərdə fəaliyyət göstərən 86 iaşə obyektində sanitariya-gigiyena və epidemiya qaydalarına, istehsalat və məişət tullantıları haqqında qanunvericiliyin tələblərinə əməl edilməsinin vəziyyəti yoxlanılıb.**

Yoxlamalarla Xəzər və Sabunçu rayonlarında fəaliyyət göstərən 16, Suraxanı rayonunda 4 iaşə obyektinin sahibinə İnzibati Xətalar Məcəlləsinin 211 (istehsalat və məişət tullantıları haqqında qanunvericiliyin pozulması), Binəqədi rayonunda fəaliyyət göstərən 3 obyektin sahibinə isə 266.3-cü (məişət tullantılarının tutumlardan kənar yerlərə atılması) maddələri ilə, ümumilikdə 23 şəxsə inzibati xəta haqqında protokol tərtib edilib və onların məsuliyyətə cəlb olunmaları təmin olunub.

Vətəndaşların sağlamlığının qorunması, yoluxucu xəstəliklərin qarşısının alınması və çimərlik ərazilərində antisanitariya şəraitinin aradan qaldırılması istiqamətində tədbirlər çimərlik mövsümü başa çatanadək davam etdiriləcək.



## Azərbaycanda avtomobil qəzalarında ölənlərin sayı 31,3 faiz artıb

**"Son 10 ildə Azərbaycanda baş verən yol-nəqliyyat hadisələrinin sayı 33,1 faiz artıb". "Report"un məlumatına görə, bunu Səhiyyə Nazirliyi Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının Gəncə Regional Məntəqəsinin böyük həkimi Sevinc Hüseynova bildirib. Onun sözlərinə görə, hadisələr zamanı ölənlərin sayı 31,3 faiz, yaralananların sayı isə 32, 6 faiz artıb.**

S.Hüseynova qeyd edib ki, statistik rəqəmlər ölkədə təcili yardım sahəsində yeni strukturun yaranmasına zəmin yaradıb: "Xəstələrə, yol-nəqliyyat hadisələrində xəsarət alan şəxslərə vaxtında və keyfiyyətli ilkin tibbi yardım göstərilməsi, xəstəxanalara çatdırılması mühüm işdir".

O qeyd edib ki, Təcili və Təxirəsalınmaz Tibbi Yardım əhalinin sağlamlığının qorunmasında böyük rol oynayır: "Qəflətli xəstəliklər, travmalar, bədbəxt hadisələr, sürətlə inkişaf edən patoloji proseslər, ağır xəstəliklər orqanizmin həyati vacib orqan və sistemlərində ağır pozulmalara gətirib çıxarır və həyat üçün çox böyük təhlükə yaradır. Bu sırada yol-nəqliyyat hadisələri xüsusi yer tutur. Belə ki, hər il avtomobil yollarında baş verən qəzalarda yüzlərlə insan həlak olur və ya ömürlük şikəst qalır".

## Bakıda 15 yaşlı oğlan dənizdə boğuldu

**Bakıda 15 yaşlı oğlan dənizdə batıb. Sabunçu Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Pirşağı çimərliyində qeydə alınıb. Daşkəsən rayon sakini, 15 yaşlı Rauf Əsgərov dənizdə çimərkən boğularaq ölüb.**

Faktla bağlı araşdırma aparılır.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 157 (6478) 21 iyul 2016

# Niyə intihar edirik - psixoloq rəyi

## “Statistika göstərir ki, intihar halları soyuq ölkələrdə daha çox olur, nəinki isti ölkələrdə”



**Azərbaycanda bir gündə 2-3 intihar hadisəsinin baş verməsi barədə xəbərlər eşidirik. Ümumiyyətlə, intihar hallarının 60 faizinin yaz-yay aylarında baş verdiyi deyilir. Belə hesab edilir ki, intiharın əsasını, yəni 70 faizini depressiya təşkil edir və depressiya keçirən insanların 15 faizi intihar edir. Rəsmi statistikaya görə, dünyada hər il 1 milyon 100 min insan özünə qəsd edir. 19 milyon insanın isə özünə qəsdi uğursuz alınır. Məhkəmə ekspertlərinin fikrincə, “bədbəxt hadisələrdən ölənlər də”(dərman aparatlarından dozadan artıq istifadə, yollarda qəza, hündürlükdən düşmə) bunlar da suisid hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bütün ölkələr üzrə suisid göstəricilərini 3 qrupa ayırır:**

**1.** Özünə qəsdin yüksək və ən yüksək səviyyəsi - əhalinin 100 min nəfərinə 20 və 20-dən çox intihar;

**2.** Özünə qəsdin orta səviyyəsi- əhalinin hər 100 min nəfərinə 10-20-yə qədər intihar;

**3.** Özünə qəsdin aşağı səviyyəsi- əhalinin hər 100 min nəfərinə 10-na qədər intihar.

Bundan başqa, ÜST intiharın (suisidin) 800 səbəbini göstərib. Bunlardan 41 faizi məlum deyil, 19 faizi cəzalanma qorxusuna görə, 18 faizi ruhi xəstəliyə, 18 faizi evdəki məhrumiyyətlərə, 6 faizi ehtirasa, 3 faizi pul itkisinə, 1,4 faizi həyatdan doyduğuna, 1,2 faizi fiziki xəstəliyə görə intiharlardır. Ən az özünə qəsd halları Misirdə, Haitidə və Yamaykadadır. Burada intihar halları demək olar ki, sıfıra bərabərdir. Azərbaycanda da tez-tez intihar edənlərin olması, xüsusən də bu halların gəncləşməsi, uşaqlaşması həyəcan təbili çalmağa əsas verir. Bu intiharları fəsillə əlaqələndirənlər olsa da, xüsusi araşdırmalar nəticəsində məlum olub ki, Azərbaycanda qadınlar və yaxud da ailə başçıları arasında intihar hadisələrinin çoxalması məhz iqtisadi vəziyyətlə bağlıdır. Daha çox böyük miqdarda borcu olanlar, ailəsini dolandıra bilməyənlər intihara əl atır. Əslində isə intihar edənlər 70-80 faiz ölməyi heç istəməyən insanlardır. Onlar bu yola əl atmadan öncə öz yaxınlarına, ətrafına müxtəlif mesajlar verirlər. “Bezdim yaşamaqdan”, özümü öldürəcəyəm, rahat olacaqsınız" kimi mesajlar əslində “çıxılmaz vəziyyətdəyəm, mənə kömək edin” anlamındadır. Psixoloqların qənaətinə görə, intihar etmək istəyən insanların təsbiti çox asandı. Belə ki, intihar riski tez-tez ölümdən danışanlarda, öz şəxsi əşyalarını ətrafına paylayanlarda, ictimai həyatla, yaxın ətrafı ilə əlaqəni kəsib özünə qapanan, tək qalmağa üstünlük verən insanlarda olur. Bu cür fikirli insanların ətrafındakılar onlara dəstək olmalı, onların bu həyat üçün, özləri üçün dəyərli olduğunu göstərməli, bunu dilə gətirməlidir. İnsanlar daha çox asılma yolu ilə intiharı seçirlər. Qadınlarla kişilərin intihar metodu arasında da fərq var. Kişilər daha qəddar və qurtulma şansı olmayan, məsələn, özünü asma, odlu silahla özünə atəş açma və sairə kimi intihar metodunu seçir. Qadınlar isə nisbətən daha romantik intihar metodlarına əl atırlar. Onlar daha çox hündürlüyə çıxıb insanları başına toplayaraq və ya dərman qəbul edərək intihar etmək yolunu seçirlər.

Dünya tarixində bu günə qədər baş vermiş milyonlarla intihar hadisələri arasında ən qəribəsi 1998-ci ildə Fransada baş verib. Belə ki, həyatından bezmiş bir fransız ən qəribə intihar metodunu seçib. Dənizin sahilindəki qayaya bağladığı kəndiri boğazına keçirib. Daha sonra zəhər içib, paltarına od vuraraq özünü uçuruma atıb və atlanarkən də əlindəki tapança ilə başına atəş açıb. Lakin güllə onun başına dəyməyib, yan keçib və kəndiri qırıb. İntiharçı dənizə düşüb. Soyuq su yanan paltarlarını söndürüb və eyni zamanda onu şoka salıb. Şok nəticəsində intiharçı içdiyi zəhəri qaytarıb. Bir balıqçı tərəfindən dənizdən çıxarılaraq xəstəxanaya yerləşdirilən həmin şəxs orada hipotermiyadan (bədən hərarətinin aşağı düşməsindən) dünyasını dəyişib.

**Psixoloq Elnur Rüstəmov intiharların mövsümlə bir əlaqəsi olmadığını dedi:** “İntihar prosesində iqlimin təsiri var. Statistika göstərir ki, intihar halları soyuq ölkələrdə daha çox olur, nəinki isti ölkələrdə. Ekvatora yaxın olan ölkələrdə intihar hallarına az rast gəlinir. Şimal ölkələrində isə bu çox olur. Ona görə də intihar hadisələrinə görə Skandinaviya ölkələri öndə gedir. Ancaq yay fəslində intihar halları azalıb. Yay aylarında narahatlıq yaşayan, depressiyada olan, özünü reallaşdıra bilməyən, ailədaxili konflikti, fərdi problemləri olan insanlarda intihar halları yaranır. Yəni burada mövsümlə, iqlimlə yox, daha çox fərdin özü ilə bağlı bir şəraitdə intihar halı baş verir. Ancaq müqayisə etsək qışda daha çox intihar olur, nəinki isti yay aylarında. Yay aylarında bədbəxt hadisələr ola bilər. Tutaq ki, dənizdə boğulma oldu. Ancaq ümumən qışda hava tez qaraldığı, günəş işığı az düşdüyü üçün depressiyanı, başqa bir psixoloji narahatçılığı, özünə qapanmanı stimullaşdıra bilər”.

❑ **Günel MANAFLI**

# İnsan niyə öz yerlisi ilə qarşılaşmaq istəmir?

## **Psixoloq:** “Burada insani faktorlar, fərdi psixoloji məqamlar çox böyük rol oynayır”

**Rus turistlərin 40 faizi xarici ölkələrdə baş tutan tətil zamanı öz həmvətənləri ilə görüşü arzuedilməz sayır. “Skyscanner” turist servisinin 2,3 min nəfər turist arasında keçirdiyi rəy sorğusunun nəticələrinə görə, respondentlərin 40 faizi həmvətənlərinə qarşı diqqət göstərmir, qalanları isə bu görüşdən məmnundurlar.**

Rus turistlərin öz həmvətənləri ilə qarşılaşmaq istəməməsinin səbəbi isə onların tətil zamanı özlərini digər millətlərdən olan turistlərdən daha pis aparmasıdır. Ümumiyyətlə, öz həmvətənlərini getdiyi ölkədə görmək istəməmək psixologiyası bütün millətlərdə var desək, yanılmarıq. Bir çox azərbaycanlılar da xarici ölkəyə gedən zaman öz həmvətənlərinin az getdiyi istirahət mərkəzlərini seçirlər. Hətta xarici ölkələrdə yaşayan azərbaycanlılar var ki, onlar öz iş birliklərini azərbaycanlı ilə deyil, başqa millətdən olan insanlarla qururlar.

Elə bir çox hallarda eyni ölkənin vətəndaşı olsaq belə, bir yerli digər yerlisini görmək, onunla eyni dam altında işləmək istəmir. Hətta el arasında belə bir deyim var: **“Adama nə pislik gəlirsə, elə öz yerlisindən gəlir”.**

Maraqlıdır, bəs bunun səbəbi nədir? İnsanların öz həmvətənlərinə kənar yerlərdə bu qədər dözümsüz olmasının psixoloji əsası varmı?

**Psixoloq Elnur Rüstəmov bunun müxtəlif psixoloji faktorlara söykəndiyini dedi:** “Bunu bütün azərbaycanlılara şamil etmək çətindir. İnsandan insana fərq var. Azərbaycanda təhsil alan, Rusiyada yaşayan bir qisim insanlar var ki, deyirlər ki, biz işimizi ruslarla görürük, öz millətimizlə oturub durmuruq. Bunun da kökündə daha çox inamsızlıq və güvənsizlik dayanır. Onlar bunu əsas gətirərək öz həmvətənlərindən qaçır, az ünsiyyətdə olurlar. Deyirlər ki, mənim üçün insan faktoru vacibdir, yerli faktorlar önəmli deyil. Onların gətirdikləri arqument bundan ibarətdir. Ancaq bütün xarici ölkələrdə fərqi yoxdur, təhsil alan azərbaycanlıların birləşdiyi bir dərnək var. O, hər kəsin üzünə açıqdır. Kim istəsə, o dərnəyə üzv ola, onların tədbirlərində iştirak edə bilər. Eləsi də var heç qarışmır, amma bu, o demək deyil ki, onun çevrəsi yoxdur. Onun çevrəsi var, sadəcə olaraq, bu çevrə öz millətindən olan yox, kənar millətlərdən olan çevrədir. Burada insani faktorlar, fərdi psixoloji məqamlar çox böyük rol oynayır. Onları danışdırsanız arqument də gətirəcəklər ki, mənim öz millətimdən olan insanlar gəlib güvənsiz çıxıblar, narahatçılıq yaradıblar. Ona görə də nə qədər uzaq olsaq, başım rahat olar düşüncəsi ilə çıxış edirlər”.



❑ **Günel MANAFLI**



# Nazirlik yaralı xəstəyə yardımın göstərilməməsinə aydınlıq gətirdi

**Azərbaycan Səhiyyə Nazirliyi Bakı Şəhər 3 saylı Klinik Xəstəxanada yaralı xəstəyə həkim tərəfindən yardımın göstərilməməsi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.**

Nazirliyin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova «Trend»ə bildirib ki, sosial şəbəkələrdə yayılan video iyulun 17-də baş verib.

Onun sözlərinə görə, Mair Əmiraslanov adlı həmin şəxs içkili olub və onun cibində bıcaq olub. Həkimləri bıcaqlayacağı ilə hədələyən M.Əmiraslanov tibbi heyətin səyləri nəticəsində 15 dəqiqədən sonra əməliyyat otağına aparılıb əməliyyat edilib. Hazırda xəstənin vəziyyəti kafidir. O, özünə gəldikdən sonra baş verən hadisələrə görə həkimlərdən də üzr istəyib.

Xatırladaq ki, yayılan videoda M.Əmiraslanovun xəstəxanada yerdə uzandığı göstərilir.

Xəstəyə yardım edilməsi üçün qeydiyyat masasında əyləşən xanım isə ona köməyin göstərilmədiyini iddia edir.

YENİ MÜSAVAT

Son səhifə

N 157 (6478) 21 iyul 2016

# Alman fotoqraf döşəmə sessiyası edib

Alman fotoqraf Sebastyan Erras İnstaqram sosial şəbəkəsində fotolar paylaşır. Bu, onun dünyanın müxtəlif ölkələrində döşəmələrə çəkdiyi mənzərələrdən ibarətdir. Hazırda bu fotolarını izləmək üçün 91 min nəfər onun instaqram hesabını izləyir.



"Daily Mail"in xəbərinə görə, Erras bu döşəmələri öz səyahətləri zamanı çəkir. Bu günədək o, mozaik döşəmələrin fotosessiyasını edib. Bununla da dünyada bu günə qədər edilməyən bir işi etməklə yeganə olub. Xatırladaq ki, alman kişi indiyədək Mərakeş, Barselona, London, Venetsiya və Antverpen şəhərlərində olub.



## Toy bitdi, bəylə gəlin bir-bir qonaqlara zəng etdi...

Amerikanın Pensilvaniya ştatında yeni ailə quran cütlüyün toy hədiyyələri oğurlanıb. Lenta.ru saytının xəbərinə görə, gənc cütlük oğurluq hadisəsi barədə toydan bir gün sonra xəbər tutub. Oğurlanan hədiyyələrin ümumi məbləği 10 min dollar olub. Emi və Ceyson adlı gənclər öz toylarını dostlarının fermasında qeyd ediblər. Mərasimə isə yüzə yaxın adam qatılıb.

Ər-arvadın dediyinə görə, hədiyyələr evdən 20 metr aralıda olan eyvanda olub və səhərə yaxın yerində tapılmayıb. Oğurluq hadisəsini aşkarlayan kimi yeni evli cütlük ətrafı axtarmağa başlayıb. Amma hədiyyələr yerində olmasa da, onların üzərinə yapışdırılmış açıqcalar yerdə imiş. Konkret nələrin itdiyini bilmək üçün gənclər qonaqlara zəng edib və hər kəs öz hədiyyəsini və onun məbləğini deyib. Son vaxtlar Amerikada belə hallar çoxalmağa başlayıb. Baks vilayətində də qısa müddət öncə yeni evlənən cütlüyün 400 dollar dəyərindəki hədiyyəsi oğurlanıb.

# Pitonu camaata nümayiş etdirdi, polis əlindən aldı



Avstraliyanın Brisben şəhərində polis əlində piton olan bir kişini həbs edib. Buna səbəb onun heyvanı qatardakı sərnişinlərə nümayiş etdirməsi olub. Xəbərdə qeyd olunur ki, bir çox sərnişinlər bu mənzərə qarşısında dəmir yolu polisinə müraciət ediblər. Onlar bildiriblər ki, qatarda çantasının içində ilan saxlayan bir kişi var və həmin ilanın uzunluğu 91 santimetrə yaxındır.

Polis əməkdaşları bildiriblər ki, sərnişinlər öz zənglərində ilanın durumu ilə bağlı narahatlıqlarını bildiriblər. İlanın sahibi - 20 yaşlı Avstraliya sakini ilə söhbətdən sonra hüquq-mühafizə orqanları müəyyənləşdiriblər ki, gənc oğlanın bu heyvanı saxlamaq üçün hər hansı icazəsi olmayıb. Polislər ilanı sahibindən alaraq heyvanxanaya aparıblar.

## Türkiyədə çevriliş oldu, bəysiz toy keçirildi



Bir neçə gün öncə Türkiyədə bəysiz toy keçirilib. Milli.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, çevriliş cəhdi ilə əlaqədar olaraq təcili vəzifəsinin yerinə yetirməyə çağırılan jandarma Alper Akyar toy gününü işdə keçirməli olub. O, toyuna gedə bilmədiyi üçün mərasimə telefonla bağlanıb.

Qeyd edək ki, cütlük iyulun 26-da yenə toy etməyi düşünür.



## Ofis işçiləri hər zaman yorğundur, çünki...

Ofis işçilərinin davamlı olaraq özlərini yorğun hiss etmələrinin səbəbi yuxusuzluq və ya ağır nahar deyil. Bu amillərin müəyyən təsiri olsa da, əsl səbəb oksigen azlığıdır. ABŞ-ın elm adamları ofis və idarələrdə karbonun miqdarının yüksək olması səbəbindən işçilərin özlərini yorğun hiss etdiyini bildirirlər. Ofisdəki karbondioksidin miqdarı açıq havada olduğundan daha çoxdur. Ventilyasiya sisteminin düzgün qurulmadığı ofislərdə çalışanların tənəffüsü ilə əlaqədar bu nisbət zərərli həddə çıxa bilir.

Araşdırma zamanı mütəxəssislər ofis, sinif, iclas otaqlarındakı və açıq havadakı karbondioksidin miqdarını ölçüblər. Güman edildiyi kimi, ən sıx karbondioksid iclas otağında qeydə alınıb. Yeri gəlmişkən, insan sağlamlığını təhdid etməsə də, yüksək həddə olan karbondioksid insanın beynindəki qərar vermə mexanizmlərinə mənfi təsir edir və yorğunluq yaradır.




**QOÇ** - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən günlərdə yol verdiyiniz hansısa səhvi düzəltmək imkanı da qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

**BUĞA** - Planetlərin yerdəyişməsi yaxınlaşdığından hər hansı mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz zərərinizə olar. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

**ƏKİZLƏR** - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər əksər bürclərlə müqayisədə yalnız sizin qazanmaq ehtimalınız olduğunu təyin edib. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

**XƏRÇƏNG** - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə, növbəti bir həftə ərzində buna nail olmayacaqsınız.

**ŞİR** - Kifayət qədər məhsuldar bir gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də başlaya bilər.

**QIZ** - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

**TƏRƏZİ** - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

**ƏQRƏB** - İxtiyarınızda olan bu süst gündə həmkarlarınızla münasibətdə təmkinli olun. Bunu bacarsanız, sonrakı müddətdə problemlə rastlaşmayacaqsınız. Mühüm sirlərinizi hər kəsə deməyin.

**OXATAN** - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

**OĞLAQ** - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da sevgi məsələlərində sevindirici anlarınız olacaq. Amma uzaq səfərə çıxmaq fikrindən daşının.

**SUTÖKƏN** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

**BALIQLAR** - Olduqca riskli gündür. Bu səbəbdən istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Təcrübəli adamlardan yararlanın. Yerli-yersiz özünüzü tərifləməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Köpək balığı 11 min kilometr üzdü, sahildə öldü



Cənubi Uelsdəki Barmut çimərliyinin sahilində köpək balığı tapılıb. "The Daily Mail"in yazdığına görə, yırtıcı balıq özünü sahilə atıb. Uzunluğu 3 metr olan köpək balığı mako cinsinə aiddir. Adətən bu cins Atlantik okeanda, Argentina, Çili və ABŞ sahillərində yaşayır. Onun 11 min kilometr üzərək Böyük Britaniyaya necə çatması hələ də sual altındadır.

Ölü köpək balığını ilk kəşf edən fotoqraf Qvion Liqett olub. Öncə sahildə yaşayanlar yırtıcı heyvanın başına yığışıb, suvenir məqsədilə onun dişlərini çıxarıblar. Bir müddət keçəndən sonra isə bioloqlar da hadisə yerinə gəliblər. Mako dünyada ən sürətli köpək balığı sinfinə daxildir. Onlar bir qayda olaraq dəniz heyvanları ilə qidalanır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750